

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## NAXÇIVAN BLOKADASI: Haradasan, ədalətsiz dünya?




4

№ 145 (6828)

SƏS

16 avqust 2023-cü il.
Qiyməti 60 qəpik

# Prezidentin fəaliyyətinin uğur hesabatı

PREZİDENT İLHAM ƏLİYEV:
"Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək"



3

# Marionetlərin son ümidi - UTOPİYA, EYFORİYA və DEKONSTRUKTİVİZM



6

## Əli Kərimlinin şər maşını susmaq bilmir



11

## İşsizliyə görə sığorta kimlərə verilir?




16

## Empatiya yoxsulu cəmiyyət: Haradan gəldik, hara gedirik?



10



## Azərbaycanda xarici dərmanlar 5 il müddətinə dövlət qeydiyyatına alınacaq

16

## Son ümid - BMT



10

# Qeyri-neft iqtisadiyyatının inkişafı və sənayeləşmə əsas hədəfdir!

## Prezident İlham Əliyev Bakıda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirak edib

**Prezident İlham Əliyev Bakının Pirallahı rayonunda ”Diamed” dərman istehsalı zavodunun açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov və ”Diamed Development Group” MMC-nin təsisçisi Aytən Quliyeva dövlətimizin başçısına görülən işlər barədə məlumat verdilər. Layihənin əhəmiyyəti barədə videoçarx nümayiş olundu.**

Qeyd edək ki, qeyri-neft iqtisadiyyatının inkişafı və sənayeləşmə Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi əhəmiyyət verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər həyata keçirilir.

Ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq ixtisaslaşmış sənaye parkları və sənaye məhəllələri yaradılır. Hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən ”Araz Vadisi İqtisadi Zonası” sənaye parkları) və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri) mövcuddur. Sənaye parkları və məhəllələrdə sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb.

Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. İndiyədək sənaye zonalarında 134 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 68-i fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,56 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb.










Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşmış Pirallahı Sənaye Parkı da yaradılıb. Bu günədək Parkda 6 müəssisə rezident kimi qeydiyyatdan keçib. Onlardan ”R-Pharm” MMC və ”Diamed Co” MMC artıq fəaliyyətə başlayıb. Rezidentlər tərəfindən 36,6 milyon manatdan çox investisiya yatırılıb, 130-dan çox iş yeri yaradılıb. Növbəti mərhələdə 30 milyon manat investisiyanın qoyulması və daha 250-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Bu Sənaye Parkının rezidentləri tərəfindən indiyədək 37 milyon manatlıq məhsul istehsal olunub.

Ölkəmizdə müasir sənaye müəssisələrinin, yeni istehsal sahələrinin yaradılması nəticəsində daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir. Belə müəssisələrdən biri də ”Diamed Development Group” MMC-nin Pirallahı rayonunda yaradılan dərman zavodudur. Bir hektar ərazisi olan zavod 3 min kvadratmetr qapalı sahədən ibarətdir.

Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə fəaliyyətə başlayan ”Azərbaycan İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının əsas məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etməklə və öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Şirkətin fəaliyyətinin əsas prioritetləri birbaşa investisiyalar və yeni texnologiyaların Azərbaycana cəlb edilməsi üzrə katalizator olmaq, ölkəmizdə qeyri-neft sektorunun inkişafına töhfə vermək, habelə iqtisadiyyatın şaxələndirilməsi və idxalı əvəzləyən proseslərə dəstək verməkdir. Şirkət fəaliyyəti dövründə 27 layihəyə 224 milyon dollar investisiya yatırıb. Bu layihələrin 11-i xarici tərəfdaşlarla birgə icra olunub.

”Azərbaycan İnvestisiya Şirkəti” ASC bu dərman zavodunun tikintisinin maliyyələşdirilməsində də iştirak edib. Ümumi dəyəri 15,6 milyon manatdan çox olan ”Diamed” dərman zavodunda ”Azərbaycan İnvestisiya Şirkəti”nin payı 20 faizdir.

Bu müəssisəyə dövlət tərəfindən digər dəstək tədbirləri də göstərilib. Belə ki, layihənin reallaşması üçün İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 6 milyon manat güzəştli kredit verilib. Sahibkarlığın inkişafına digər bir dövlət dəstəyi çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi sayəsində müəssisə idxal etdiyi avadanlıqlara görə 1,3 milyon manat güzəşt əldə edib. Daha sonra Prezident İlham Əliyev zavodu işə saldı.

İstehsal prosesi ilə yaxından tanış olan dövlətimizin başçısına məlumat verildi ki, zavodda müxtəlif adlarda, geniş çeşiddə (NaCl 0,9 faiz; Ringer; Ringer laktat; Qlükoza və s.) və müxtəlif həcmlərdə (100 ml, 200 ml, 250 ml, 400 ml, 500 ml) həyati vacib və zəruri venadaxili dərman məhlulları istehsal olunacaq. Müəssisənin illik istehsal gücü 20 milyon litrdir. Qeyd olundu ki, ölkəmizin bu dərmanlara olan illik tələbatı isə təxminən 15 milyon litrdir. Beləliklə, müəssisədə istehsal edilən məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur.

”Diamed” dərman zavodunda 100 iş yeri yaradılıb. Müəssisənin layihəsi İsveçrə şirkəti tərəfindən Qabaqcıl İstehsal Təcrübəsinə (GMP), istehsal xətti isə Avropa Farmakopeyasına uyğun olaraq hazırlanıb. Yüksək texnologiya və tam qapalı sistemlə təchiz edilmiş zavodun istehsal avadanlıqları İtaliya, ABŞ, Almaniya, İsrail kimi ölkələrdən alınıb. İstehsal olunan məhsullar zavoda məxsus müasir laboratoriyada Avropa Farmakopeyasının tələblərinə uyğun mütəmadi olaraq yoxlanılır.



# Prezidentin fəaliyyətinin uğur hesabatı

## PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək"

Bəli, uğurlu idarəçiliyi təmin edən əsas faktorlardan biri hakimiyyətin öz fəaliyyəti və hədəflədiyi məsələlər barədə ölkə ictimaiyyətinə məlumatların, hesabatların verilməsidir. Qeyd edək ki, Azərbaycan Prezidenti bütün sahələrdə görülən işlərlə bağlı mütəmadi olaraq vətəndaşlarına məlumat verir. Həmçinin, dövlət başçısının sədrliyi ilə hər bir ilin və ya ilin müəyyən dövrünün yekunlarına, yaxud digər məsələlərə həsr olunan müşavirələrin keçirilməsi də bu istiqamətdə atılan addımlardan biridir."Bizim bu müşavirəmiz də bir növ vətəndaşlara verilən hesabatdır. Eyni zamanda, vətəndaşlar bilsinlər ki, biz hansı işləri görməyi planlaşdırırıq, onlardan da təkliflər gözləyirik", - deyə dövlət başçısı belə müşavirələrin birində deyib. Bu mənada da, iyulun 14-də keçirilən 6 ayın yekunlarına həsr olunan müşavirdə Azərbaycan Prezidenti İlham Əliyev çox mühüm məsələlərə toxunub. Dövlət başçısını toxunduğu, qeyd etdiyi hər bir məsələ bir daha göstərdi ki, Azərbaycan hakimiyyəti qarşıda dayanan bütün vəzifələri layiqincə yerinə yetirir, hər bir məsələdə dövlətin milli maraq və mənafeləri qətiyyətlə təmin edilir. Bu baxımdan da ötən ilin 6 aylıq siyasi və iqtisadi yekunları Azərbaycan Prezidentinin növbəti hesabatı idi.

### DÜZGÜN İQTİSADİ SİYASƏT ÖLKƏNİ ANCAQ TƏRƏQQİYƏ DOĞRU APARIR

Bu, real faktordur ki, ölkə iqtisadi cəhətdən müstəqil olanda, siyasi müstəqilliyə də qovuşmuş olur. Çünki iqtisadi asılılığı olan ölkələr heç vaxt müstəqil siyasət yürüdə bilməzlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi və siyasi müstəqillik qazanmış azsaylı ölkələrdəndir. İlin altı ayının sosial iqtisadi göstəricilərinin ildən-ilə artaraq tərəqqi doğru aparır."Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir",- deyən Prezident İlham Əliyev bildirib ki, ölkəmiz ötən altı ayda nəzərdə tutulmuş hədəflərə nail olunub.

Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır Qeyd olunmuşdur ki, cari ilin altı ayında əsas istiqamətlər ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.Qeyri-neft sektoru və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayesi 6,5 faiz və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artmışdır. Belə ki, iqtisadiyyat 6,2, qeyri-neft sektoru 9,6, sənaye istehsalı 2,1, qeyri-neft sənaye istehsalı 11,5, əhalinin gəlirləri 20, orta əməkhaqqı 14 faiz, pensiya isə 10 faizdən çox artıb. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır Belə ki, iqtisadiyyat 6,2, qeyri-neft sektoru 9,6, sənaye istehsalı 2,1, qeyri-neft sənaye istehsalı 11,5, əhalinin gəlirləri 20, orta əməkhaqqı 14 faiz, pensiya isə 10 faizdən çox artıb. Cari ilin dövlət büdcəsi 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. İlin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edilsin. Bu gün Azərbaycanın büdcəsi 36 milyard manatdan çoxdur. Bu, imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edilsin, ilk növbədə, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verilsin və hərbi gücümüzü artıraq.



### NƏZƏRDƏ TUTULAN PLANLAR DAHA SÜRƏTLƏ İCRA EDİLİR

Dövlət başçısı İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizdə səsləndirdiyi hər bir çağırış reallıqda öz əksini tapır. Hazırkı dövrün əsas çağırışlarından biri Qarabağın və Şərqi Zəngəzurun bərpasıdır. Dövlət başçısı İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə də tarixi Zəfərimizdən ötən qısa zamanda görülən işlərə diqqəti yönəldərək onların fonunda qarşıda dayanan vəzifələri açıqladı.

"Hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir",- söyləyən Prezident İlham Əliyev bu mühüm məqamı da xüsusi qeyd etdi ki, Qayıdış proqramı ardıcıllıqla aparılır. İlin sonuna qədər artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kənddə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur: "Əlbəttə ki, biz, bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik.

Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik".Dövlət başçısı İlham Əliyev hələ xeyli əvvəl 2021-ci ilin yanvarında 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə bildirmişdi ki, planlarımız böyükdür. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur: "Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir".Artıq o vaxtdan iki il yarımdan artıq zaman keçir. Dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 16 noyabr 2020-ci ildə işğaldan azad edilmiş ərazilərimizə ilk səfərləri hazırkı genişmiqyaslı bərpa-quruculuq işlərinin əsası oldu. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən Milli Prioritetlərdə də bu hədəf xüsusi yer alır ki, Qarabağ bölgəsi "yaşıl enerji" zonası kimi dünya üçün bir nümunə olacaq. Bu torpaqlarda ən müasir standartlara cavab verən enerji sistemi yaradılacaq. Cənab İlham Əliyevin çıxışlarında bu mühüm məqam xüsusi qeyd olunur ki, hazırkı dövrün əsas çağırışlarından biri bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılmasıdır. Azərbaycan bu sahədə də zəngin potensiala malikdir. Son zamanlar imzalanan sənədlərə diqqət yetirsək görərik ki, Azərbaycanın bərpa olunan enerji sahəsində malik olduğu potensial xüsusi qeyd edilir, enerji sahəsində əməkdaşlıqda yeni səhifənin açıldığı bildirilir. Azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyevin tapşırığı ilə yol infrastrukturunun bərpası prioritet məsələ kimi öndədir.

Dövlətimizin başçısının bu ərazilərə səfərlərinə diqqət yetirdikdə yol tikintisinə xüsusi diqqət yetirildiyini, səfərdən sonra yeni yolların tikintisi ilə bağlı Sərəncam imzaladığını xüsusi qeyd etməliyik. Avtomobil yolu, dəmir yolu və hava limanının tikintisi prioritetdir. Beynəlxalq əhəmiyyət kəsb edən iki aeroport- Füzuli və Zəngilan hava limanları istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanının 2024-cü ilin sonu 2025-ci ilin əvvəllərində istifadəyə verilməsi nəzərdə tutulur. Hədəflərə vaxtında və yüksək səviyyədə nail olmaq üçün bütün qüvvə və bacarıqlar səfərbər edilir. Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında qeyd olunduğu kimi, necə ki, "Dəmir yumruq nümayiş etdirib torpaqlarımızı işğaldan azad etdik, eyni zamanda, bu birlik, həmrəylik əsasında bərpa və quruculuq işlərini uğurla başa çatdıracaq, soydaşlarımızın Böyük Qayıdışı həyata keçiriləcək".Bəli, arxada qalan hər gün Böyük Qayıdışı tam şəkildə yaxınlaşdırır. Bütün bölgələrimizin malik olduqları potensialdan səmərəli istifadə etməklə Azərbaycanın növbəti mərhələdə dayanıqlı inkişafı tam təmin ediləcək, bu ərazilərimiz xarici turistlərin diqqətini çəkəcək, investisiyaların artırılması üçün gözəl imkanlar yaranacaq. Atılan hər bir addım bir məqsədə xidmət edir: Azərbaycan iqtisadiyyatının dayanıqlılığı təmin edilməklə qarşıya çıxan hər bir çətinlik anındaca aradan qaldırılsın. Bərpa-quruculuq işləri ilə paralel olaraq sülh müqaviləsinin imzalanması istiqamətində ölkəmizin göstərdiyi səylər ümumilikdə bölgənin gələcək inkişafına stimul olacaq.

Bir sözlə, yeni əsrin yeni lideri İlham Əliyev bu 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasına nəzər salaq. Məhz bu konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu.Beləliklə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən geniş miqyaslı siyasi və iqtisadi islahatlar nəticəsində, sosial-iqtisadi sahədə, eyni zamanda, beynəlxalq əməkdaşlıq sahəsində böyük uğurlar qazanılmışdır və bundan sora da Azərbaycan öz gücü hesabına qarşıya qoyulmuş bütün məqsədlərinə çatacaq. Dövlət başçımızın müşavirədə söylədiyi kimi: "Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək".

*RƏFİQƏ KAMALQIZI*

# NAXÇIVAN BLOKADASI:
# Haradasan, ədalətsiz dünya?

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının (QHT) beynəlxalq ictimaiyyətə ünvanlandığı müraciət ölkədə Naxçıvan blokadasından ən çox yazan jurnalist kimi yenə də bu yaramın qaysağını qopardı. Həqiqətən də bu ədalətsiz dünya haradadır? Müraciətdə də deyildiyi kimi, bəs bu 30 ildə Naxçıvanın blokada vəziyyətini görə bilməyən, bunu görməyə gözləri yumulu olan dünya nə üçün ermənilərin halına yanır? Hansı ki, orada əsaslı bir məsələ yoxdur və ermənilər saxta blokada söhbətində tamamilə haqsızdır. Lakin Naxçıvan hələ də blokada şəraitində yaşayır. Dəyişən sadəcə bir məsələdir: blokadanın ən acı illəri geridə qalıb... Belə isə o ağrılı-acılı illərə qayıtmağın tam məqamıdır.




## Taleyin ümidinə buraxılmış tənha ada

Artıq 1989-1990-cı illərdə Naxçıvanda blokada çoxdan başlamışdı. İki il ərzində ayrı-ayrı vaxtlarda qatarların işləməməsi, elektrik, qaz xətlərinin kəsilməsi günlərini hesablayanda bir il idi ki, Naxçıvan blokada şəraitində yaşayırdı. Elektrik enerjisinin, təbii qazın yoxluğu, qatarların işləməməsi bütün istehsal müəssisələrinin fəaliyyətinin dayanmasına səbəb olmuşdu. Yollarda hərdənbir avtomobil görünürdü. Rayonlardan Naxçıvana gəlib-gedən marşrut avtobusları dayandırılmışdı. Çünki yanacaq yox idi. İnsanlar evlərində yandırmağa heç nə tapmırdı. Onlar soyuqdan donurdular. Bu, hələ blokadanın ilk ili idi. Qarşıda ərzaq qıtlığı, ümumiyyətlə, yanacağın olmaması fonunda dəhşətli bir həyat var idi. Naxçıvan günü-gündən məhvə doğru sürüklənirdi. Bir tərəfdən ermənilərlə bütün sərhədlərində, xüsusilə Sədərəkdə qanlı müharibələr gedirdi, bir tərəfdən region informasiya blokadasına məruz qalmışdı, digər tərəfdən isə aclıq, səfalət hökm sürürdü.






Naxçıvan həmin dövrdə bu çətinlikləri naxçıvanlılarla birlikdə yaşayan, çıraq işığında fəaliyyət göstərən Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi, taleyin ümidinə buraxılmış tənha adanı xatırladırdı.

1988-1993-cü illərdə Ermənistan Azərbaycana qarşı tamah dişini qıcayanda və bir-birinin ardınca torpaqlarımızı işğal edəndə Naxçıvan üçün çətinliklər nə üçün yaradılırdı? Çünki Naxçıvanın işğalı da düşmənin baş planında əsas yer alırdı. Başlanğıc olaraq artıq 88-89-cu illərdə Bakı-Naxçıvan qatarlarında hər gün yeni hadisələr törədilirdi. Qatarlar əvvəlcə daş yağışına tutulur, daha sonra isə güllləbaran edilirdi. Vaqonlar da, pəncərələri də deşik-deşik idi, yaxud da pəncərə şüşələri tamamilə qırılıb tökülmüşdü, yerinə nazik taxta lövhələr vurulmuşdu. Maşinistlər iki gündən bir döyülüb, təhqir edilirdi. Sərnişinlərin taleyi təhlükə altında idi və bu, ozamankı Azərbaycan rəhbərliyini əsla narahat etmirdi. Lakin naxçıvanlılar yenə də qatarlardan istifadə etmək məcburiyyətində idilər. Çünki paytaxt Bakıya bu nəqliyyat vasitəsi ilə gedib-gəlmək ucuz başa gəlirdi və odövrkü iqtisadiyyatı tənəzzülə uğramış ölkənin unudulmuş regionu olan Naxçıvanın əhalisi çox kasıb vəziyyətdə yaşadığı üçün həyatları təhlükə altında olsa da, bu nəqliyyatdan istifadə edirdilər.

Ermənistan Naxçıvana gələn elektrik enerjisini mütəmadi kəsir, qaz kəmərini partladırdı. Nəticədə isə bu yerin əhalisi həftələrlə, aylarla işıqsız, qazsız qalır, qış aylarında Naxçıvanın sərt kontinental iqlimində soyuqdan donurdular. Elektrik enerjisinin kəsilməsi yuxarıda da qeyd etdiyim kimi, zavod, fabriklərin fəaliyyətinin dayanmasına, iş yerlərinin bağlanmasına, əhalinin aclıq, səfalətlə üzləşməsinə, xüsusilə isə informasiya blokadasına salınmasına səbəb olmuşdu. Əhali ölkədə olan hadisələrdən bixəbər yaşayırdı. Prezident İlham Əliyev həmin günləri belə xatırlayır:"Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq.

Bütün bunlar müraciətdə də qeyd olunur: "Biz - Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları beynəlxalq ictimaiyyətə üz tutaraq bildiririk ki, Naxçıvan Muxtar Respublikası 30 ildən çoxdur ki, blokada şəraitində yaşayır. Naxçıvan əhalisi 15 ilə yaxın blokadaya görə qazsız qalıb, hətta elektrik enerjisi yox idi. Azərbaycanın əsas hissəsindən gələn enerji xətləri Ermənistan tərəfindən kəsilmişdi. Naxçıvanla Bakı arasında əlaqələr dəmir yolu üzərindən idi və bu da 1992-ci ildə Mehridən gələn son qatar güllə-baran edildikdən sonra kəsildi.

Beynəlxalq birlik Naxçıvandakı dinc sakinlərin problemlərinin, eyni zamanda blokadanın aradan qaldırılması üçün heç bir addım atmayıb və Ermənistana bu məsələdə heç bir təzyiq etməyib. Niyə bu illər ərzində bizim haqq səsimiz eşidilməyib?".

## Ulu Öndər Heydər Əliyev olmasaydı...

Ozamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlatsaq, muxtar respublikanın son dərəcə acınacaqlı durumu göz önünə gəlir. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrildi, hamı onun timsalında böyük xilaskarını tapdı. 22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı, eyni zamanda naxçıvanlıların xilası tarixi kimi daxil oldu. On minlərlə insan muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindən axın-axın Naxçıvan şəhərinə, Ulu Öndərin ziyarətinə gəlir, ona tükənməz sevgisini bildirirdi.

Ardı Səh. 5

# NAXÇIVAN BLOKADASI:
## Haradasan, ədalətsiz dünya?



Əvvəli Səh. 4

Elə həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilən möhtəşəm mitinqdə yüz minə yaxın insanın iştirakı da dahi rəhbərə xalqın sonsuz məhəbbət və inamının təntənəsi idi.

Təklənmiş bir adaya bənzəyən Naxçıvan görkəmli şəxsiyyətin gəlişi ilə nicat yoluna çıxdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə deyir: Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən - 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz Vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.

İllər ötdükcə blokada Naxçıvanı düşmənə meydan oxudu. Məhv olmaması, yaşaması ilə düşmənin gözdağına çevrildi. Blokada Naxçıvanı informasiya blokadasını yarıb səsini dünyaya yaydı. Mənsub olduğu ölkənin rəhbərliyinin cəsarət edib toxuna bilmədiyi məsələlərə toxundu. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərar imzalandı. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı.

Azərbaycanın müstəqilliyinə gedən yol Naxçıvandan başlandı. Bu yolun bələdçisi isə Ulu Öndərimiz Heydər Əliyev idi. 1991-ci ildə qazandığımız və 1920-ci ildəki kimi itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimiz məhz Ümummilli Liderimizin sayəsində xalqa bəxş olundu.

Ulu Öndər Heydər Əliyevin blokada Naxçıvanında yaşadığı, fəaliyyət göstərdiyi dövr iki ilədək olsa da, Azərbaycan tarixinin böyük bir hissəsini əhatə edir. Böyük şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarındakı çıxışlarını, Naxçıvana gələn qonaqlarla söhbətlərini, ayrı-ayrı sahələrdəki vəziyyətlə bağlı fikirlərini, müsahibələrini oxuduqca çox məqamlar açıqlanır. Bunlardan birincisi, Ulu Öndərə baxmayaraq ki, Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi vaxtlar da ölkə rəhbərliyi tərəfindən təzyiqlər var idi, lakin onun Azərbaycan rəhbərliyinə həmişə böyük hörmət hissi ilə yanaşması dahi şəxsiyyətin böyük idarəçilik qabiliyyətinin, insanlığının, alicənablığının nəticəsi idi. İkincisi, Ulu Öndərin qonaqlara, xarici ölkələrdən gələn nümayəndələrə Naxçıvanın Azərbaycanın qədim ərazisi olduğunu tarixi faktlarla izahının şahidi olursan. Üçüncüsü, onun ölkədəki, eləcə də muxtar respublikadakı ictimai-siyasi hadisələrin siyasi təhlilinin və təcavüzkar Ermənistanın, onun havadarlarının uzaq gələcəyə hazırlanmış planlarını nə qədər dəqiqliklə analiz etdiyini görürsən. Ümumilikdə isə Ulu Öndərin hər bir çıxışı, söhbəti bu günün bir tarix dərsidir ki, gələcək nəslin Naxçıvan blokadası haqqında məlumat almaları üçün bundan güclü ikinci bir mənbə yoxdur.

### Həqiqi blokada görmək istəyən Naxçıvana baxsın

Müraciətdə deyilir: Ermənistan 2020-ci ildə 44 günlük müharibədən sonra imzalanmış 10 noyabr üçtərəfli bəyanatın müddəalarına əməl etmir, Zəngəzur dəhlizinin açılması istiqamətində heç bir tədbir görmür. Biz bu barədə dünya ictimaiyyətinin Ermənistana ardıcıl çağırışlarını, sanksiyaları-




nı gözlədiyimiz bir vaxtda, tam əksi baş verir.

Laçın yolunun guya bağlı olması barədə yalan məlumatlar, böhtanlar əsasında bir-birinin ardınca bəyanat verənlər, Azərbaycan dövlətini əsassız olaraq qınayanlar niyə bir dəfə də olsun Naxçıvanın on illərdir blokadada qalması barədə məsələ qaldırmayıblar? Laçın yolu istiqamətinə gələrək binoklla Azərbaycan tərəfə baxan xarici ölkə səfirləri niyə bir dəfə Naxçıvanın blokadasının aradan qaldırılması barədə söz deməyiblər? Bu qərəzli, riyakar, yanaşma bizi hiddətləndirir. Əgər beynəlxalq aləm bölgədə həqiqi blokada görmək istəyirsə, Naxçıvan Muxtar Respublikasına baxa bilər.

Baxa və görə bilər ki, 30 ilin başlanğıcında insanlar Naxçıvanda olmazın müsibətləri ilə üz-üzə qaldılar. Qaranlıq evlərdə yaşamaq, soyuq evlərdə axşamlayıb-səhərləmək nəsibləri oldu. Baxıb görə bilərlər ki, blokada insanları həyətlərindəki son ağacları da kəsib yandırmağa vadar etdi. Hansı ki, o ağacların hər biri dədə-baba yadigarı, həm də bar ağacları idi.

Baxa və görə bilərdilər ki, Naxçıvanda blokadanın ilk illərində soyuğa davam gətirə bilməyən yüzlərlə uşaq və qoca dünyasını dəyişdi. Qalanlar isə aclıq, səfalət yoxsulluq içində yaşamaq məcburiyyətində qaldı. O illərin canlı şahidi kimi deyə bilərəm ki, kasıblıq, yoxluq son həddə idi. İnsanlar ət, meyvə, şirniyyatın nə olduğunu çoxdan unutmuşdu. İnsanlar yağ tapıb yemək hazırlaya bilmirdi. Evlərdə aylarla bir tikə qənd tapmaq mümkün deyildi. Uşaqlar şirin çaydan ötrü səhərdən-axşamadək ağlayırdı.

Hər kəsin üzünə yoxsulluq dərin izlər salmışdı. Qocalı-cavanlı hər kəsin üzü eyni ifadəni-kədəri əks etdirirdi. Hər kəsin üst-başından evində sobasına guya istilik yaratmaq məqsədilə birtəhər tapıb qoyduğu yaş çör-çöpün, kağızın, kartonun iyrənc qoxusu gəlirdi. Naxçıvanda o illər havadan da eynilə insanlardan gələn qoxu gəlirdi.

Çörək qıtlığı günlərlə insanların ac qalması ilə nəticələnmişdi. Qışın şaxtalı günlərində soyuq evlərdən sübh vaxtı çörək növbələrinə yollananların əksəriyyəti saatlarla mağazaların qarşısında donmasına baxmayaq evlərinə əliboş qayıdırdılar. Əliboş qayıtmaq bilirsiniz nə deməkdi? Bir gün ac qalmaq, bir gün uşaqların axşamadək "çörək" deyib ağlaması idi, ey dünya... Harada idiniz, ədalətsiz dünya o zaman? Nə üçün bunların bircəsini belə görən gözünüz olmadı?

Sonralar Ulu Öndərin Türkiyə və İranla apardığı danışıqlar nəticəsində ərzaq məsələsi yavaş-yavaş öz həllini tapdı. Ölkədə ikinci dəfə siyasi hakimiyyətə qayıdandan sonra isə Naxçıvana diqqət və qayğı daha da gücləndi. Çünki Ulu Öndər naxçıvanlıların nə vəziyyətdə yaşadıqlarına şahid idi. Onlarla birlikdə acınacaqlı günlər yaşamışdı. Onlarla birlikdə soyuq və qaranlıq evdə yaşamalı olmuşdu.

Budur, 30 ildən artıqdır ki, blokada davam edir. Naxçıvan əhalisi öz ölkəsinə quru yolla gedib-gələ bilmir. 30 ildən artıqdır ki, naxçıvanlılar Azərbaycanın ayrı-ayrı bölgələrində, paytaxt Bakıda yaşayan qohum-əqrəbasının toy, yas mərasimlərində ürəkləri istəyən kimi iştirak edə bilmirlər. Çünki hər kəsin maddi imkanı çatmır ki, ailəliklə təyyarə bileti alıb Bakıya, oradan da bölgələrə yollansın. Hansı ki, Naxçıvanda toy, yas mərasimlərində ailəliklə-uşaqdan-böyüyə iştirak etmək adətdir. Bu baxımdan artıq bir qərinədir ki, qədim yurd öz qədim adətlərindən də kənar düşüb. Bəs bunun haqqını kim verməlidir? Susan dünya, yoxsa, haqqı nahaqqa qurban verən dünya?..

### Zəngəzur dəhlizi Naxçıvan əhalisinin ümididir

2020-ci ilin payızında, 44-cü gün içində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və milli ordumuzun şücaəti ilə İkinci Vətən müharibəsi qələbə ilə nəticələndi. 10 noyabrda Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladıqları Bəyanat isə ondan bir gün öncəki qələbənin üzərinə bir qələbə də əlavə etdi. Ermənistan kapitulyasiya aktını imzalamaqla təslim olduğunu bildirdi. Beləliklə, Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, itkisiz Azərbaycana qaytarıldı. Bəyanatın 9-cu bəndi isə Naxçıvanın blokadadan çıxması üçün cənab İlham Əliyevin təkidi ilə bir maddə olaraq sənədə salındı.

Bu, bir reallıqdır ki, Zəngəzur dəhlizi Naxçıvan blokadasını yaracaq. İllərlə bu blokadanın yarılmaması üçün canlabaşla çalışan ermənilərin əllərindən gələni etmələrinə rəğmən bu, dövlətimizin prioritetidir. Çünki Zəngəzur dəhlizi naxçıvanlıların ümididir: Vətəninə, torpaqlarına qovuşmaq ümidi...

Müraciətdə də bütün bunlar ətraflı təhlil olunur: "Azərbaycan Respublikası öz sərhədlərinə nəzarət və Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Laçında sərhəd buraxılış məntəqəsi yaradılıb. Bu sərhəd buraxılış məntəqəsi Qarabağın minalanmasının, bölgəyə terrorçu diversiya qruplarının göndərilməsinin qarşısını alır. Dinc insanların ölümünə bais olanları necə müdafiə etmək olar? Necə ola bilər ki, Ermənistan başqa dövlətin suveren ərazisindən "dəhliz" istəyir, amma özü suverenliyini bəhanə gətirib bundan imtina edir. "Suverenlik" anlayışı məgər universal deyil? Yoxsa, "suverenlik" anlayışı Ermənistan üçün başqa məna kəsb edir və ya onun üçün əlavə imtiyazdırmı? Əgər belə deyilsə, onda Zəngəzur dəhlizi niyə açılmır? Niyə bu barədə Ermənistana təzyiq yoxdur? Təəssüf ki, bu suallara cavab verilmir.

Biz 30 illik işğaldan sonra torpaqlarını öz gücü ilə azad edən, Ermənistanın tamamilə dağıtdığı, yer üzündən sildiyi ərazilərdə sıfırdan şəhərlər və kəndlər inşa edən, məcburi köçkünləri öz yurdlarına qaytaran Azərbaycana qarşı həyata keçirilən ikili standartlar siyasətini kəskin şəkildə pisləyirik.

30 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan əhalisinin ümidi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın digər bölgələri ilə quru əlaqəsinin yaradılması, regionda kommunikasiyaların açılmasıdır. Zəngəzur dəhlizi açılmalı, blokada aradan qaldırılmalıdır. Necə ola bilər ki, Azərbaycan hökuməti Qarabağda yaşayan erməni sakinlər üçün Laçın yolu ilə kommunikasiya imkanları yaradır, üstəlik Ağdam-Xankəndi yolunu da təklif edir, ancaq Ermənistan Naxçıvan əhalisinin hətta humanitar əsasda belə Azərbaycanın digər hissəsinə keçməsinə şərait yaratmır. Biz tələb edirik ki, dünya birliyi Ermənistanı Zəngəzur dəhlizi layihəsini icra etməyə məcbur etsin!

Biz tez-tez humanitar əsasda Beynəlxalq Qırmızı Xaç Komitəsinin Laçın yolu ilə daşımalar həyata keçirdiyini müşahidə edirik. Beynəlxalq Qırmızı Xaç Komitəsinə də çağırış edirik ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyanı təmin etsin".

Bəli, ermənilərin saxta blokada çağırışlarını eşidib reaksiya verənlər, buyurun, Naxçıvanın 30 ildən artıq blokadasını, bu gün də naxçıvanlıların blokadanın əziyyətini çəkdiklərini duymağa çalışın. Çalışmadığınız təqdirdə biz yenə də "haradasan, ədalətsiz dünya" deyə ədalət axtarmağa davam edəcəyik.

***Mətanət Məmmədova***

# Marionetlərin son ümidi - UTOPİYA, EYFORİYA VƏ DEKONSTRUKTİVİZM



Guya "Dağlıq Qarabağın mülki əhalisinin məcburi şəkildə tam blokadaya alınması səbəbi ilə humanitar vəziyyətin pisləşməsi ilə əlaqədar" növbədənkənar iclasın çağırılması tələbi ilə BMT Təhlükəsizlik Şurasına müraciət edən Ermənistan öz ənənəsinə sadiq qalaraq, yenə də beynəlxalq ictimaiyyəti aldatmaq və bundan çirkin məqsədlər üçün istifadə etmək niyyətindədir. Sözsüz ki, qondarma və dırnaqarası "aclıq", "soyqırım" deyə bir problem olmadığı halda rəsmi İrəvan, eləcə də erməni lobbisi məsələni şişirtməklə diqqəti cəlb etmək, bölgəyə hansısa qüvvələri yönəltmək, onların müdaxiləsinə nail olmaq, Azərbaycanın yaratdığı mövcud reallığı öz istəklərinə uyğun şəkildə dəyişmək arzusundadır. Sual doğuran məhz Ermənistan tərəfinin buna nail olub-olmayacağı məsələsidir və maraqlı məqam da ondan ibarətdir ki, görəsən ermənilər özləri buna inanırlarmı?

Azərbaycanın ərazi bütövlüyünü tanıdığı barədə, erməni baş naziri Nikol Paşinyanın bildirməsindən sonra ölkəmizin öz ərazisində atdığı addımları müzakirəyə çıxarmaq, yaxud da bunu mübahisə predmeti olaraq ortaya atmaq yalnız erməni xislətinin təzahürü ola bilər və bu, Ermənistanın danışıqlar prosesindən çıxmaq niyyətində olduğunu açıq-aydın şəkildə göstərir. Ermənistanın atdığı addım, daha dəqiq desək, qondarma və dırnaqarası "aclıq", "soyqırım" iftirası ilə işğalçı ölkənin BMT Təhlükəsizlik Şurasına müraciət etməsi, guya "Dağlıq Qarabağın mülki əhalisinin məcburi şəkildə tam blokadaya alınması səbəbi ilə humanitar vəziyyətin pisləşməsilə əlaqədar" növbədənkənar iclasın çağırılması tələbi ilə çıxış etməsi rəsmi İrəvanın son zamanlar ifrat dekonstruktivizm nümayiş etdirən təxribatçı siyasətinin daha bir elementidir.

Rəsmi Rəvanın mövqeyində dəyişkənlik onu göstərir ki, Ermənistan hakimiyyəti separatçıların ideyalarının girovuna çevrilib. Ağdam-Xankəndi yolu ilə əlaqədar 24 saat ərzində aparılan danışıqların ardınca MBT-yə müraciət edilməsi bir daha göstərir ki, Qarabağın erməni əhalisini üzün müddətdir girovluqda saxlayanların əlində Paşinyan və onun hakimiyyət komandası oyuncaq kimi oynadılır. İşğalçı ölkə hakimiyyəti ölkəsinin aciz durumunu başa düşdüyü, qəbul etdiyi halda, müharibə, toqquşma, döyüş olacağı təqdirdə yenə də daha rüsvayçı məğlubiyyətə düçar olacağını anladığı halda separatçıların axmaq revanşizm ideyalarının öhdəsindən gələ bilmir, sanki onların quluna çevrilib və məhz separatçıların marioneti kimi görünür. Azərbaycanın yaratdığı reallığı dəyişməyin mümkünsüzlüyünü dərk edən hakimiyyət bilməli idi ki, qəbul edilmiş hər hansı müraciətlər, qətnamələr, fərmanlar bu gün mövcud regional reallığa uyğun gəlmirsə, beynəlxalq qanunlara və onları təsdiq edən təşkilatın, başda da elə BMT-nin özünün də prinsiplərinə zidd olacaq. Yəni, bilməli idi ki, belə bir sənədin qəbulu perspektivi heç inandırıcı deyil. Əgər müraciət edibsə, deməli, ya bilmir, ya da boş ümidlər bəsləyir. Bu isə utopiyadan başqa bir şey deyil.

İkili standartların, ikili yanaşmaların hökm sürdüyü dünyada qeyri-adi halların, qərarların qəbuluna ümid edən ermənilər ola bilsin ki, eyforiyaya qapılıblar və zənn edirlər ki, bəlkə də tələbləri ilə bağlı istəklərinin qəbul edilməsi mümkün olar, amma bu rakursda da yanılırlar. Əvvəla ona görə ki, BMT kimi bir təşkilatın, beynəlxalq qurumun ermənilərin yalançı tələbləri ilə bağlı onları qane edən qərar qəbul etməsi elə həmin təşkilatın özünün dekonstruktivizm yolu ilə getməsi deməkdir, hansıki bu da beynəlxalq təşkilatlara qoyulan tələblərə cavab verilməməsi deməkdir və bu böyüklükdə təşkilat erməni yalanlarına görə buna rəvac verməz. Rəvac versə belə bu, Azərbaycanın deyil, elə məhz BMT-nin özünün nə isə edə bilmədiyinin, zəifliyinin, beynəlxalq hüquq normaları çərçivəsində ədalətli və obyektiv qərar verə bilməməsi kimi xarakterizə olunar. Nə vaxtsa ölkəmizə qarşı ikili standartların tətbiqinə öyrəncəli olmuş ermənilərin bu məqamda da eyni şəkildə nəyə isə ümid etmələri eyforiyaya qapılmaqdır, çünki gözləntilərinin gerçəkləşməsi heç də gözlənilən deyil və Təhlükəsizlik Şurasında, həm də BMT-də oturanlar erməni lobbisinin onları doğru yoldan döndərməyə çalışdığını anlayaraq belə bir addım atmazlar, obyektivlik də qorunar. Ermənilərin tələblərinə baxılsa belə, müəyyən fikir oxşarlığı olsa belə, uzaq başı BMT müraciət xarakterli nə isə qəbul edə bilər və bu, heç də hədələyici məzmunlu, yaxud da hansısa məcburi tələbləri ehtiva edən ola bilməz.

Diqqətə çatdıraq ki, ərazilərimizdən erməni silahlılarının qeyd-şərtsiz çıxarılması barədə BMT-nin məlum dörd qətnaməsinə əsrin üçdə birinə yaxın müddət ərzində Ermənistan tərəfinin məhəl qoymadığını həmin beynəlxaq qurum çox yaxşı bilir. Yaxşı bilir ki, ATƏT-in Minsk Qrupunun misalında bir sıra təşkilatlar, qurumlar onillər boyunca heç bir nəticə hasil edə bilmədiyi halda, həmin qətnamələrin reallaşdırılmasını Azərbaycan öz üzərinə götürdü və bunun da öhdəsindən layiqincə gəldi, 44 günlük müharibənin məntiqi nəticəsi olaraq, öz gücünə qələbəni təmin etdi, ərazilərini işğaldan azad etdi, işğala son qoydu. Bütün bunların fonunda, əvvəla, BMT Bakını öz yolundan döndərməyə məcbur etmək fikrinə belə düşməz. Digər tərəfdən də BMT kimi bir mötəbər beynəlxalq təşkilat üçün sirr deyil ki, sülh yolu ilə nizamlanma prosesinə mane olacaq hər hansı qərar qəbul ediləcəyi təqdirdə heç bir qətnaməyə baxmadan öz ərazisində öz Konstitusiyasının və qanunlarının qəbul olunmasını Azərbaycan təmin edəcək və buna haqqı da, gücü də çatır. Deməli, Ermənistan tərəfinin utopiyaları və eyforiyaya qapılması tamamilə mənasız və yersizdir.

Heç bir fakta, heç bir arqumentə istinad etmədən qondarma və dırnaqarası "aclıq", "soyqırım" deyə hayhəşir salan haylar bilməlidirlər ki, Ermənistan tərəfindən fərqli olaraq Azərbaycanın məlum məsələ ilə əlaqədar yetərincə arqumenti var. Ağdam-Xankəndi yolu barədə Azərbaycanın təklifi qüvvədədir və Ağdamdan yüklərin daşınması üçün yol açıqdır. Sual oluna bilər ki, niyə ermənilər bu yoldan istifadə etməkdən boyun qaçırır, imtina edirlər? Səbəb nədir ki, ancaq Laçın yolından istifadə etmək ermənilər üçün bu qədər maraqlıdır? Belə bir sual elə BMT tərəfindən də Ermənistana verilə bilər. Məhz bu sualın fonunda elə BMT Təhlükəsizlik Şurası özü müzakirələrdən sonra sadəcə olaraq, həmin yoldan istifadə etməyi tövsiyə edər. Yox, əgər, Ermənistan tərəfi məhz 2020-ci il tarixli Üçtərəfli Bəyannaməyə istinad edərək, "azad və maneəsiz giriş öhdəliyi" barədə tələblə çıxış edərsə, bilməlidir ki, həmin sənəddə Laçın yolu ilə bağlı "sərbəst və maneəsiz giriş" öhdəliyi yoxdur, hansıki bu məqam BMT üçün də qaranlıq deyil. Diqqətə çatdıraq ki, həmin sənəddə maneəsiz əlaqə öhdəliyi yalnız Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirən yola, yəni Zəngəzur dəhlizinə münasibətdə göstərilir. Biz sözlə, növbədənkənar iclasın çağırılması tələbi ilə BMT Təhlükəsizlik Şurasına müraciət edən hayların nəyə isə ümid etmələri axmaqlıqdır. Ən maksimun halda, ermənilərin BMT Təhlükəsizlik Şurası sədrinin hər iki tərəfin korrektə olunmuş mövqelərini əks etdirən bəyanatından başqa nə isə gözləmələri elə utopiyadır.

Ən diqqətçəkən məqam odur ki, bu sadalananlar barədə elə Nikol Paşinyan özü də, onun hakimiyyət komandası da bilir. Bilir ki, bu müraciət də onlara heç nə verən, reallığı, Azərbaycanın yaratdığı reallığı dəyişən deyil. Elə isə niyə rəsmi İrəvan buna əl atır? Məsələ burasındadır ki, işğalçı ölkənin mövcud hakimiyyəti bunun son ümid yeri olduğu qənaətindədir və separatçıların əlində oyuncağa çevrilən həmin hakimiyyət bir növ elə separatçıların özlərinə də bunu göstərmək istəyir. Göstərmək istəyir ki, separatçılar yaxalarından əl çəksinlər. Axı Ermənistanın marionet hakimiyyəti məhz separatçıların girovu kimi nə isə edə bilmir və ümid edir ki, bu dəfə onlar reallıqları öz gözləri ilə görüb yerlərində oturarlar. Amma çətin ki, belə olsun, çünki rəsmi İrəvan həmin separatçılara qarşı qətiyyət göstərmədən, siyasi iradə nümayiş etdirmədən yaxasını onların əlindən xilas edə bilməyəcək. Deməli, ilk növbədə separatçılardan yaxa qurtarmaq gərəkir, əks halda, Ermənistanın marionet hakimiyyətinin son ümidi də puç olacaq və görünən odur ki, utopiya, eyforiya, dekonstruktivizm heç bir nəticə vəd etmir.

***İnam Hacıyev***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Paşinyan BMT-də "tamaşa" qurur: yanında Vaşinqton, Brüssel, Paris də var...

**Ermənistan 100 illər bundan əvvəl olduğu kimi yenə də siyasi meymun, regiondakı siyasi əməliyyatlar üçün "ov tulası" missiyasına sədaqətini isbatlamağa çalışır. Çox gözəl cümlədir: beynəlxalq güclər üçün regionda ov tulası! Bütün mənalarda belədir. Bu işğalçı, erməni faşizm ideologiyası ilə yüklənən düşmən ölkə heç olmasa tarixdə bircə kərə öz şərəfini, qürurunu düşünüb öz taleyinə özü qərar verməyə heç vaxt cəsarət edə bilmir. Nə cəsarət, nə də şərəf bu ölkəyə xas olmadığı üçün yazımdakı ŞƏRƏF və QÜRUR anlayışının dəyərini haradan anlasın....**

Sülh müqaviləsini imzalamamaq üçün yüz çirkin oyuna sürüklənin Nikol Paşinyan hökuməti, indi də BMT binasında ağlaşma qurub. Guya Laçın koridorundan keçə bilməyən ermənilərin Xankəndidə "acından gəbərdiyi" barədə çığır-bağır salıb BMT-də.

Sözsüz ki, bosslarının tapşırığı ilə. Tarixin ironiyasına bir bax: bir vaxt Azərbaycanın ərazi bütövlüyünü təsdiq edib dörd qətnamə çıxaran, daha sonra çıxardığı qərarlarının arxasında durmayan, bu qərarları heçə sayan işğalçı Ermənistana "gözün üstə qaşın var" deyə bilməyən BMT, indi Ermənistanın növbəti rəzilliyi üçün uğursuz beynəlxalq siyasi şou səhnəsinə çevrilir. Nikol Varvaroviç də balaca "beyninin" içində tozlanan ağlınca BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə oyun oynamağı planlaşdırır. Sözsüz ki, özünün deyil, "xaç atalarının" göstərişi ilə! Deyir ki, Azərbaycan Xankəndidəki ermənilərı "blokadaya" alıb, Xankəndiyə ərzaq daşımaq olmur, ordakı ermənilər "acından" gəbərirlər, və sairə...

Klassik erməni hiyləsi deyil, əsl erməni rəzilliyi, başqa heç nə! Görəsən, BMT-də oturub hələ vicdanını itirməyən insanlar Xankəndidəki restoran və şadlıq saraylarında gecə-gündüz davam edən eyş-işrəti, kef məclislərini izləyib belə yalanlara görə bu gün N.Paşinyanın üzünə tüpürərlərmi? - çətin məsələdir. Çünki belə yerlərdə vicdan sahibləri yox, ikiüzlü qərb diplomatiyasının icraçıları otururlar. Onsuz da beynəlxalq münasibətlər üçün heç bir qara qəpiyə dəyməyən, heç kimin it yerinə qoymadığı bu BMT qərar çıxarsa nə olasıdır ki? Kimdir BMT-ni filan yerinə sayan? Məgər N.Paşinyan və onun "xaç ataları" bilmirlərmi ki, qərarları heç yerdə keçməyən bir təşkilatda belə siyasi şoular qurmaqla heç bir nəticə əldə etmək olmur? Bilirlər, özü də bizdən qat-qat əla bilirlər. Çünki belə təşkilatları siyasi alət kimi özləri istifadə edirlər həmişə. Cikinə də bələddirlər, bikinə də. Amma onlara sadəcə siyasi şou lazımdır, beynəlxalq müstəvidə sürətlə artan Azərbaycanın təsirinə "dur" demək istəyirlər. Onları yandıran Türkiyə -Azərbaycan birliyinin birgə siyasəti ilə Qarabağın azad olunması, Ermənistanın bütün siyasi platformalarda oyundankənar vəziyyətə salınmasıdır.

Bu işdə N.Paşinyandan daha şox Brüssel, Moskva, Vaşinqton, ən çox da Ermənistan üçün əsl "bacı" obrazına girən Fransa bu məsələdə maraqlıdırlar. Hətta hazırda Ukraynaya görə Qərb üçün amansız düşmən kimi görünən Rusiya da Qarabağ məsələsində avropadakılarla vacib müttəfiq kimi vahid mövqedən çıxış edir. Təki Türkiyə və Azərbaycan daha da güclənməsin, Qarabağdakı radikal separatçılar faşizm işinə davam etsinlər.

Açıq şəkildə görünür ki, N. Varvaroviç avqustun 16-da BMT-də qurulacaq bu siyasi tamaşada maraqlı deyil. Çünki bu cür perspektivsiz, Ermənistana vaxt itirməkdən başqa heç nə vəd etməyən mənasız oyunlardan heç bir erməni heç nə qazanmayacaq. N.Paşinyana ölkə daxilində hakimiyyətini və sözünün kəsərini artılan addımlar hava və su kimi lazımdır. Çünki əla başa düşür ki, rəsmi Bakı ilə belə təsirsiz oyunlar qurmaq onun hakimiyyətinin ölkədəki olan-qalan sosial dayaqlarını da kökündən məhv edir. Ona ermənilərı razı salan, iqtisadiyyatı canlandıran proseslər lazımdır ki, hakimiyyətini və ictimai nüfuzunu az da olsa saxlaya bilsin. Ona qalsa, Azərbaycanla razılaşmaya, yaxınlaşmaya hamıdan çox maraq göstərir. Amma o özbaşına deyil ki. Onu İrəvanda ikinci Lenin obrazına bürüyüb hakimiyyətə gətirənlər buna qəti imkan verməzlər. Onların N.Paşinyandan tələbləri və istəkləri məhz onların maraqları üçün çalışmasıdır. Nikol onlara sədaqətli olsun yetər. Qalan təxribatları özləri reallaşdıracaqlar. Elə belədir ki var. Ən təəssüflendirici hal odur ki, Azərbaycan məsələsində artıq Moskva da bu siyasi təxribatlara "sığal çəkməyə" başlayıb. Bir sözlə, bu gün BMT-də erməni təlxək tamaşası olacaq. Nəticələri bizə VIZ GƏLSƏ DƏ...

# Transxəzər reallaşır?

## Türkmənistan Xəzəryanı ölkələri əməkdaşlığa çağırır

**Türkmənistan Xəzər dənizinin sülh, harmoniya və əməkdaşlıq dənizi olaraq qalması üçün səylərini davam etdirəcək. Bu sözləri Türkmənistan prezidenti Serdar Berdiməhəmmədov Xəzər dənizi - Sülh və Dostluq Dənizi forumunda çıxışı zamanı deyib. Xarici işlər naziri Rəşid Meredov Xəzərdə əməkdaşlıqla bağlı bir sıra ağrılı məqamları dilə gətirib. O, həmçinin təsdiq edib ki, Aşqabad Avropa İttifaqına təbii qazın tədarükü üçün Transxəzər qaz kəməri layihəsi üzrə avropalı tərəfdaşlarla əməkdaşlığı davam etdirməyə hazırdır. Manea 5 il əvvəl qəbul edilmiş Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyadır ki, bu da faktiki işləmir. Meredovun fikrincə, bütün mübahisəli məsələlər Rusiya Federasiyasının təşəbbüsü ilə Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin ilin sonuna qədər baş tuta biləcək görüşündə həll edilməlidir.**




Avqustun 12-də Türkmənistanda Xəzər dənizi günü qeyd edilib. Avaza milli turizm zonasında beynəlxalq forum keçirilib və Serdar Berdiməhəmmədov qeyd edib ki, Türkmənistan regionda Xəzəryanı dövlətlərin qarşısında duran təxirəsalınmaz vəzifələri müzakirə etmək üçün 2002-ci ildə ilk Xəzər sammitini keçirən ölkə olub.

Bu gün Türkmənistan Xarici İşlər Nazirliyinin rəhbəri Rəşid Meredovun dediyi kimi, əsas vəzifə ilk növbədə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada əksini tapmış Xəzər dənizində yaradılmış əməkdaşlıq mexanizmlərindən maksimum istifadə etməkdir. O, beş il əvvəl qəbul edilmiş Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın mahiyyətcə işlək olmadığını vurğulayıb. Qurulmuş əməkdaşlıq mexanizmlərindən istifadə edilmir. O hesab edir ki, mövcud imkanlardan və formatlardan istifadə etməklə bu vəziyyəti dəyişmək lazımdır. "Dövlət başçılarının əldə etdiyi ən mühüm razılaşmalar tam yerinə yetirilməlidir", - Meredov vurğulayıb. Nazir xatırladıb ki, "bu il Rusiya Federasiyasının təşəbbüsü ilə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin görüşünün keçirilməsi nəzərdə tutulurdu. Türkmənistan bu təşəbbüsə vaxtında müsbət reaksiya verdi və onu tam dəstəklədi. Ümid edirik ki, görüşün ilin sonuna kimi baş tutacağına ümid edirik", - Meredov bildirib. O, Xəzər dənizində təhlükəsizlik, enerji və ekologiya sahəsində problemlərin həllinə yönəlmiş tədbirlərin işlənib hazırlanması üçün platformanın müəyyənləşdirilməsini təklif edib.







ANALİZ

Xüsusilə Aşqabad Xəzər dənizinin dayazlaşmasından narahatdır. Dəniz səviyyəsi minimum dəyərlərə yaxındır və son 25 il ərzində demək olar ki, 2 m azalıb. Bu da dənizin əhəmiyyətli məsafələrə, bəzi yerlərdə yüzlərlə metrə qədər geri çəkilməsinə səbəb olur. Bu, bioloji müxtəlifliyə mənfi təsir göstərir. Türkmənistan nazirinin sözlərinə görə, Xəzər suitilərinin, quşların və balıqların kütləvi şəkildə tələf olması halları qeydə alınıb. O hesab edir ki, bu məsələnin tədqiqi Xəzəryanı dövlətlərin elmi təşkilatlarının, lazım gələrsə, beynəlxalq strukturların, o cümlədən BMT-nin də cəlb olunması ilə birgə tədqiqat obyekti olmalıdır.

O qeyd edib ki, Türkmənistan təkcə qonşu ölkələrlə deyil, regiondan kənar dövlətlərlə də tamhüquqlu iqtisadi əməkdaşlığı inkişaf etdirməyi hədəfləyir. Transkontinental nəqliyyat dəhlizlərinin, xüsusən də "Xəzər dənizi-Qara dəniz"in formalaşdırılması üzrə işləri belə əməkdaşlığa misal göstərmək olar. Müvafiq sənəd 2019-cu ilin martında Buxarestdə Türkmənistan, Azərbaycan, Gürcüstan və Rumıniyanın xarici işlər nazirləri tərəfindən imzalanıb.

"Enerji sektorunda Türkmənistan enerji axınlarının şaxələndirilməsi strategiyasına sadiq qalaraq Transxəzər boru kəməri layihəsinin həyata keçirilməsində avropalı tərəfdaşlarla əməkdaşlığı davam etdirməyə hazır olduğunu bildirir. Avropa 30 milyard kubmetrə qədər qaz idxal etməyə hazırdır. Türkmənistan da öz növbəsində 2007-ci ildən tədricən bu məqsədə doğru irəliləyir. Bu ilin sonuna qədər prezident Serdar Berdiməhəmmədov Avropa İttifaqının rəhbərliyi ilə danışıqların planlaşdırıldığı Brüsselə səfər edəcək. Türkmənistanın səfiri Sapar Palvanov Avropa Komissiyasının sədri Ursula fon Der Leyenə etimadnaməsini təqdimetmə mərasimində məsələyə bir daha toxunub. Avropa Komissiyasının rəhbəri Türkmənistan tərəfinin bu sahədə əməkdaşlıq etmək istəyini alqışlayıb və bu istiqamətdə gələcək tərəfdaşlıq potensialını qeyd edib.

Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyaya əsasən, Aşqabadın qaz tranziti ilə bağlı danışıqlar aparmalı olduğu qonşu Azərbaycan Transxəzər boru kəmərinin tikintisinin əleyhinə deyil, üstəlik, əməkdaşlıqdan məmnun olacaq.

Bu gün Türkmənistan öz qazını Çinə ixrac etməklə yanaşı, İrana tədarük həcmini də artırır. Aşqabad həmçinin Özbəkistan və Tacikistana qaz sahəsində strateji tərəfdaşlıq təklif edib. Türkmənistan hakimiyyətinin fikrincə, ölkədə təbii qaz kifayətdir. Hazırda dünyada üçüncü və dördüncü ən böyük təbii qaz yatağı olan "Qalkınış"ın işlənməsi üzrə işlər aparılır. "Bu baxımdan, biz yaxın illərdə Türkmənistanda qaz hasilatını ən azı daha 60 milyard kubmetr artırmağı planlaşdırırıq. Bu artan daxili tələbatı tam ödəməklə yanaşı, Türkmənistan xammalının xaricə tədarük həcmini artıracaqdır. Eyni zamanda, bizim mütləq prioritetimiz türkmən qazının qonşularımıza - Özbəkistan və Tacikistana ixracı olacaq", - deyə Türkmənistan Xarici İşlər Nazirliyinin rəhbəri Rəşid Meredov Türkmənistan, Özbəkistan və Tacikistan dövlət başçılarının üçtərəfli sammitinin yekunlarına dair açıqlamasında bildirib.

Bununla belə, Aşqabadın planları üzərində bir təhlükə var idi: Rusiya Türkmənistanı Çinin qaz bazarından sıxışdırıb çıxara bilər. Bu barədə "Türkmənqaz"ın rəhbəri Myrad Arçayevin avqustun 12-də dövlət xəbər agentliyinə verdiyi şərhdə deyilir. Xatırladaq ki, bir gün əvvəl "Rossiya Seqodnya" agentliyi Rusiya tərəfinin Rusiya, Özbəkistan və Qazaxıstanın qaz ittifaqını əməkdaşlıqda maraqlı olan digər dövlətlər hesabına genişləndirmək niyyətində olduğunu bildirmişdi. "Türkmənqaz" rəhbəri çaşqındır ki, hansı genişlənmə imkanlarından danışır, başqa hansı dövlətlər maraq göstərir. Qaz sektorunda "üçtərəfli qarşılıqlı fəaliyyət"in arxasında nə dayanır? Onun sözlərinə görə, Rusiya tərəfi "başqa dövlətlərin, o cümlədən Türkmənistanın maraqlarına toxunduğundan" dolğun cavab verməlidir. Arçaev xatırladıb ki, Türkmənistan, Qazaxıstan və Özbəkistan uzun müddətdir əməkdaşlıq edir və "açıq razılaşdırılmış həcmlər, şərtlər, iqtisadi və texniki parametrlərlə" Çinə qaz tədarük edir. Ümumi tədarükün 55 milyard kubmetrin 40 milyard kubmetri Türkmənistan, qalan hissəsini isə Özbəkistan və Qazaxıstan ixrac edəcək. Boru kəmərini doldurmaq üçün başqa ölkələrdən qaz mənbələri yoxdur və layihənin yeni iştirakçıları mövcud təchizat sxeminə daxil edilməyib, deyən Arçaev əlavə edib. Bildirib ki, Türkmənistan Çin, Özbəkistan və Qazaxıstan tərəfdaşları qarşısında götürdüyü öhdəliklərə ciddi şəkildə riayət edir. Və qarşılıq gözləyir. Bu qaz kəməri ilə qazın nəqli sxemlərində hər hansı dəyişiklik Türkmənistanla koordinasiya tələb edir, lakin Türkmənistan tərəfi bu məsələ ilə bağlı heç bir məsləhətləşmə aparılmayıb".



**V.SALAH**

Milli dövlət quruculuğu və idarəçiliyinin şərəfli mərhələsini, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan həm də Cənubi Qafqazın ən fəal siyasi-iqtisadi aktoru kimi nüfuzunu gündən-günə yüksəldir. Bunu şərtləndirən yeganə amil isə təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevin son 20 il ərzində yürütdüyü tam müstəqil siyasətdir.Hansısa böyük dövlətin və ya beynəlxalq təşkilatın diktəsi ilə deyil, məhz lideri olduğu ölkənin milli maraqlarından irəli gələn siyasətin müəllifi olan İlham Əliyevin həyata keçirdiyi diplomatiya Azərbaycanı beynəlxalq birliyin etibarlı və nümunəvi dövlətinə çevirib. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də 44 günlük Vətən müharibəsində tarix yazan qüdrətli ordusunda təsdiqini tapır.Və hər zaman verdiyi vədlərə, səsləndirdiyi fikirlərə sadiqliyi ilə seçilən Azərbaycan Prezidenti İkinci Qarabağ müharibəsindəki zəfərdən sonra regionda yaranmış reallıqlar fonunda yeni missiyasını reallaşdırır - Cənubi Qafqazda sülhün, sabitliyin təmini, müasir əməkdaşlıq platformalarının yaranması. Bütün bunlar İlham Əliyevin son dövrlərdə keçirdiyi bütün görüşlərdə, tədbirlərdə, konfranslarda səsləndirdiyi fikirlərdə də təsdiqini tapır.



# Azərbaycanın mövqeyi qəti və dəyişməzdir!

PREZİDENT İLHAM ƏLİYEVİN "Euronews"a müsahibəsi "sülh danışıqları prosesi" üzərində qurulan oyunların mahiyyətini açdı

## SÜLH SAZİŞİ YALNIZ AZƏRBAYCANIN İSTƏYİNƏ UYĞUN REALLAŞMALI, MƏĞLUB ÖLKƏ QALİBLƏ HESABLAŞMALIDIR

Bəli, Prezident İlham Əliyevin "Euronews"a müsahibəsində bütün bu reallıqlar barədə dünya birliyində, beynəlxalq ictimaiyyətdə düzgün təsəvvür yaratması bir daha ölkəmizin mövqeyini nümayiş etdirdi. Belə ki, Prezident İlham Əliyev müsahibəsində Azərbaycan və Ermənistan arasında sülh danışıqları ilə bağlı əvvəlki müsahibələrində olduğu kimi, "Euronews"a növbəti müsahibəsində də bir daha bildirib: "Əgər Ermənistan ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysa, onda biz tezliklə sülh variantını tapa bilərik".

Dövlət başçımız onu da bildirib ki, hazırda sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir. Dövlət rəhbərlərinin görüşləri isə yaxşı mühit yaradır. Vurğulanıb ki, əgər Ermənistan tərəfindən konstruktiv yanaşma olsa, onlar Azərbaycanın ərazi bütövlüyünü mübahisələndirən bütün iddialarını kənara qoysalar bu ilin sonunadək sülh variantı tapıla bilinər.

Cənab Prezident müsahibəsində bildirib ki, ölkəmizin Ermənistana qarşı hər hansı bir ərazi iddiaları yoxdur. Dövlət başçısı bildirib ki, Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq: "Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik".

Həssas məsələlər arasında sərhədlərin gələcək parametrləri, kommunikasiyalarla bağlı vəziyyəti qeyd edən Prezident İlham Əliyev bildirib: "İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim Naxçıvan kimi eksklavımıza çıxışımız olsun. Lakin bu, hələ də baş vermir. Beləliklə, sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir. Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək və ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə sülh variantını tapa bilərik. Bəlkə ilin sonunadək".

## AZƏRBAYCAN PREZİDENTİ ERMƏNİSTANDAKI ERMƏNİLƏRƏ NÖVBƏTİ MESAJ ÜNVANLAYIB: ONLAR QONDARMA LİDERLƏRİNİN ARXASINCA GETMƏMƏLİDİRLƏR

Göründüyü kimi, "Euronews" telekanalına müsahbəsində Prezident İlham Əliyev həm də Ermənistandakı ermənilərə mesaj ünvanlayaraq bildirib: "Onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya çatacaqlar. Müharibə bu hekayələri məhv etdi. Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik. Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu liderlər onlara daim yalan danışıblar. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm".Ölkə başçısı öz müsahibəsində 44 günlük Vətən müharibəsindəki Şanlı Qələbəyə xüsusi olaraq toxunaraq bildirdi ki, müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi və o uğurla başa çatdı: "Biz müharibədə qalib gəldik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər".Bir sözlə, Ermənistana təklif olunan prinsiplər sülh sazişi üçün təməl olmalıdır. Ümumiyyətlə, Prezident İlham Əliyevin "Euronews" telekanalına müsahbəsi və verilən bütün suallara ətraflı cavablandırması bir daha onu göstərdi ki, Azərbaycan Cənubi Qafqaz dövləti olaraq sülhü, əmin-amanlığı, inkişafı dəstəkləyir və nəinki öz qonşuları ilə, Cənubi Qafqazla əməkdaşlıq etmək istəyən digər dövlətlərlə dostluq münasibətlərini və əlaqələrini qurmağa hazırdır. Ümumiyyətlə, Prezident İlham Əliyev müsahibəsində bir daha yeni reallıqlara aydınlıq gətirərək həqiqətləri və Azərbaycanın ümumi istəyini bəyan etdi və Ermənistandakı ermənilərə və onların havadarlarına mühüm mesajlar ünvanladı. Və bir daha bildirdi ki, Azərbaycanın Qafqazda yeni sülh və əməkdaşlıq erasını fəal şəkildə təşviq edir.Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün xarici siyasət Cənubi Qafqaza sülh gətirmək nöqteyinəzərindən uğurlu bir siyasətdir. Bundan sonrakı münasibətlərdə də Azərbaycan bu mövqeyini qoruyub, saxlayacaq.

Digər bir baxışdan isə Azərbaycan qalib dövlətdir və Azərbaycan Prezidenti danışıqlarda Ali Baş Komandan kimi iştirak edir. Bu da görüşlərin sonrakı mərhələsində əldə olunacaq naliyyətlər, tarixi qələbəmiz kimi qiymətləndirilməlidir. Və İrəvan Azərbaycan Prezidenti İlham Əliyevin sülh danışıqları üçün irəli sürdüyü 5 təməl prinsipi qəbul edib və bu şərtlər Ermənistanla sülh müqaviləsinin əsasını təşkil etməlidir. Çünki Azərbaycan Prezidentinin apardığı siyasət regionumuza sülh və firəvanlıq gətirəcək.Beləliklə, bütün bunlar onu göstərir ki, regionda vəziyyətə diktə edən tərəf Azərbaycandır və ölkəmizin atdığı addımlar beynəlxalq hüquqa əsaslanır. Və Azərbaycan öz sülh təşəbbüslərinə adekvat cavab tələb edir və bizim buna tam haqqımız çatır. Çünki haqq-ədalət də, beynəlxalq hüquq da bizim tərəfimizdədir. Biz heç kimin ərazisinə göz dikmirik və öz halal torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplomatik siyasətinin reallığıdır.

***RƏFİQƏ KAMALQIZI***

# Sosial islahatlar proqramının əsas hədəfi: Sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik

## Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bizim siyasətimiz sosialyönümlü siyasətdir





Azərbaycan dünyada sosial dövlət kimi mövqeyini daha da möhkəmləndirir. Ölkəmizin həyata keçirdiyi təkmil sosial-iqtisadi islahatlar beynəlxalq maliyyə qurumlarının hesabatlarında da yüksək dəyərləndirilir. Bu fikir beynəlxalq səviyyədə də xüsusi vurğulanır ki, Azərbaycan dünyaya yeni iqtisadi və sosial inkişaf modelini təqdim edir və bu model təqdirəlayiqdir. Ölkəmizin yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunması da bunun təsdiqidir. İqtisadi tərəqqi hər bir dövlətin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Azərbaycanın iqtisadiyyatını düzgün əsaslar üzərində qurması daim rastlaşdığı hər bir çətinliyi uğurla həll etməsini şərtləndirir. İqtisadi tərəqqinin güclü sosial siyasət ilə tamamlanması vətəndaş məmnunluğunun artırılmasında əhəmiyyətli rol oynayır.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətin həyata keçirdiyi siyasətin ana xəttini təşkil edir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki. dünyanı bürüyən koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirildiyi vaxtlarda belə Azərbaycan iqtisadi islahatları, sosial layihələri ilə diqqətdə oldu. Dövlət başçısı İlham Əliyev ilk gündən bu çağırışı etdi ki, iqtisadi islahatlar dərinləşdirilməlidir, heç bir sosial layihə təxirə salınmamalıdır. COVID-19-la mübarizə tədbirlərinin gücləndirildiyi müddətdə ölkə Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hər an vətəndaşların yanında olmaları, onların sosial müdafiəsinin gücləndirilməsi, sosial xidmətin şəffaflığının təmin edilməsi istiqamətində atdıqları addımlar ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı. Dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamına uyğun olaraq 20 fəaliyyət sahəsini, 4 sektoru əhatə edən 10 yardım proqramı həyata keçirildi. COVID-19 pandemiyasının davam etdiyi dövrdə belə təkmil sosial paketin tətbiqi ilə 4 milyondan artıq ölkə vətəndaşının iqtisadi-sosial vəziyyətinin yaxşılaşdırılması təmin edildi. Sahibkarların fəaliyyəti üçün şərait yaradıldı. Bütün dövlətləri narahat edən, insan amili ilə bağlı hesabatlarda hələ də istənilən rəqəmlərlə ifadə olunmayan işsizlik probleminin həlli, korrupsiyaya qarşı mübarizə üçün yollar axtaran ekspertlərə bu sahədə Azərbaycanın təcrübəsi nümunə göstərildi.

Həmin vaxtlarda da sosial xidmətin təkmilləşdirilməsinə xidmət edən DOST mərkəzlərinin miqyası genişləndi. Onu da qeyd edək ki, DOST Agentliyi Birinci vitse-prezident Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. DOST Agentliyinin yaradılması "ASAN xidmət"in müsbət tendensiyasının davam etdirilməsi məqsədini daşıyır. Bu cür mərkəzlərin yaradılması məşğulluğun artırılmasının, həm də ölkəmizin dayanıqlı inkişafının təmin olunmasına xidmət edir.

Dövlət siyasətinin təməlində vətəndaş amilinin dayandığı atılan hər addımda özünü qabarıq şəkildə büruzə verir. Sosial islahatlar proqramının əsas hədəfi də məhz dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsipinin qorunmasıdır. Dövlət başçısı İlham Əliyevin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Prezidentin "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir.

Azərbaycan brendi kimi diqqətçəkən sosial layihələrdən biri də "ASAN xidmət"dir. Bu layihəni dünyada ilk və alternativi olmayan yenilik kimi dəstəkləyən BMT-nin rəsmiləri ölkəmizdə yaradılan bu sistemi iqtisadi, sosial inkişafın vəhdəti kimi dəyərləndirirlər. Yeni xidmət növü olan və ailələrin büdcəsinin möhkəmlənməsi naminə "Ailə Biznesinə Asan Dəstək" ("ABAD") layihəsinin həyata keçirilməsi ilə iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin artırılması işi sürətləndirildi. "Bizim özünüməşğulluq proqramına böyük ümidlərimiz var. Bu proqram həm iqtisadi inkişafımıza təkan verəcək, xüsusilə regionlarda həm məşğulluq probleminin həllini sürətləndirəcək, eyni zamanda, bəzi vətəndaşlarımızı ələbaxımlıq vərdişindən çəkindirəcək" söyləyən dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, bu proqramın icrasına cəlb olunan insanlar daxili potensialdan, əmək resurslarından istifadə etməklə ailə büdcələrini formalaşdıracaq, halal zəhmətləri ilə pul qazanacaq, eyni zamanda, ölkə iqtisadiyyatına töhfələr verəcəklər.

Azərbaycan brendi olan "ABAD"a marağın artması, sosial sahədə aparılan islahatlar, "ASAN xidmət"in analoqu olan yeni layihənin-Dayanıqlı və Operativ Sosial Təminat mərkəzlərinin təşkilini aktuallaşdırdı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakları ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin açılışı sosial islahatların tərkib hissəsi olmaqla önəmi, çoxşaxəli xidmət strukturu ilə də fərqlənir. Dünya təcrübəsində ilk olan bu yeni xidmət növləri ilə tanışlıq zamanı xarici qonaqlar da bildirirlər ki, DOST konsepsiyası - Azərbaycanın mühüm sosial uğuru, vətəndaş məmnunluğunu ifadə edən alternativi olmayan yenilikdir. Əvvəldə də qeyd etdiyimiz kimi, sosial islahatların coğrafiyasını genişləndirən, istiqamətlərini şaxələndirən dövlət başçımız İlham Əliyevin Fərmanı ilə yaradılan DOST Agentliyi və Agentliyin DOST mərkəzləri sosial sahədə vətəndaş məmnunluğuna yönəlik köklü islahatların ən mühüm nailiyyətlərindəndir. DOST Agentliyinin fəaliyyətini sosial islahatların müasir növü kimi yüksək qiymətləndirən dövlət başçısı İlham Əliyevin bu fikirlərində xalqa dəyər, insana qayğı, məhəbbət duyğuları əks olunur: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək." 2022-ci ildə Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının Fəxri fərmanına layiq görülən DOST Agentliyinin, həmçinin ötən il Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatını qazanması da DOST konsepsiyasının müasir dünyanın innovasiyalar sahəsində mühüm nailiyyətləri sırasında olduğunu göstərir. "Texnologiya alətləri" kateqoriyasında sosial xidmətlərdə smart modelin tətbiqinə görə DOST Agentliyi 20 mindən çox səslə Avropanın nüfuzlu Mükafatına layiq görülmüşdür. Təşkilata üzv Avropa dövlətlərinin DOST layihəsinə olan marağının göstəricisi kimi həmin səslərin 17 mini qeyd edilən dövlətlərdən gəldi. DOST bu gün Avropa Sosial Şəbəkəsi Şurasının Avropa İttifaqı üzvü olmayan yeganə dövlət qurumu, eyni zamanda, şəbəkənin tədbir və müzakirələrinin fəal iştirakçısı olan yeganə MDB təmsilçisidir. Bu da DOST-a Avropada olan böyük marağı və onun uğurlu islahat təcrübəsi kimi qəbul edildiyini ehtiva edir.

"Könüllü DOST" proqramı da bu gün aktual olan sosial layihələrdəndir. 2015-ci ildə ölkəmizdə keçirilən Birinci Avropa Oyunları zamanı yaranan və fəaliyyət istiqamətləri genişlənən könüllülük hərəkatı da Azərbaycana məxsus yenilikdir. Yuxarıda adı çəkilən Avropa Sosial Şəbəkəsinin qeyd edilən müsabiqəsində də DOST Könüllülərinin fəaliyyətinə dair "Dəyərləri birləşdir - bərabərliyə nail ol"" adlı ərizəsi "Möhtəşəm Heyət" kateqoriyasında Avropa müsabiqəsinin finalçısı oldu. Qeyd edək ki, DOST Agentliyi 4 istiqamət üzrə ISO sertifikatlarına da layiq görülüb.

Azərbaycanın yeni brendinə çevrilən 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında açılacaq, ən müasir texniki avadanlıqlarla təmin olunan 31 DOST mərkəzinin fəaliyyətini "Vətəndaşlara yüksək xidmət göstərmək üçün burada bütün şərait, bütün imkanlar var. Bina çox gözəldir, müasirdir, həm xarici görünüşü, həm də dizayn-tərtibat baxımından. Bu, bir daha onu göstərir ki, sosial sahə bizim üçün prioritet sahədir. Hər mərkəzdə təqribən 100-150 iş yeri olacaq, bu da çox önəmlidir. Hər bir mərkəzdə könüllülər qrupu fəaliyyət göstərəcək. Beləliklə, bu mərkəzlər vətəndaşlara yüksəksəviyyəli xidmət etmək üçün gözəl şərait yaradacaqdır" sözləri ilə ölkə vətəndaşlarına diqqət kimi dəyərləndirən, sosial sahənin dövlət üçün prioritet olduğunu diqqətə çatdıran dövlət başçısı İlham Əliyev vurğulayır ki, bu sahə ilə bağlı bizim siyasətimiz daha geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir.

"Bizim siyasətimiz sosialyönümlü siyasətdir" çağırışını atdığı addımları ilə təsdiqləyən dövlət başçısı işsizliyin aradan qaldırılmasına, qeyri-neft sektorunun inkişafına yönələn islahatlar paketi ölkə vətəndaşları tərəfindən rəğbətlə, sevinclə qarşılanır. "DOST" mərkəzlərinin simasında ölkəmizdə geniş tətbiq olunan sosial islahatlar əksini tapır. DOST mərkəzlərinin tərkibindəki "Çağrı Mərkəzi" ölkə üzrə gündəlik minlərlə zəng qəbuluna şərait yaradır.

Yeni yaradılan xidmət növündən razılığını DOST-a dost olaq, DOST-u dünyada tanıdaq" sözləri ilə bildirən ölkə vətəndaşları insanların rahatlığı üçün yaradılan belə yüksək səviyyəli xidmət üçün dövlət başçımıza daim minnətdarlıq edirlər. Vətəndaş maraqlarına xidmət edən, onun müasir sosial trendlərə çevik uyğunlaşmasına hesablanan, şəffaflıq, sosial ədalət və yeni dövrün çağırışlarından irəli gələrək xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqi Prezident İlham Əliyevin sosial siyasət fəlsəfəsinin ana xəttini təşkil edir və əhali tərəfindən rəğbətlə qarşılanır. DOST mərkəzlərində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin tibbi sosial ekspertiza sahələri üzrə bütövlükdə 100-dən artıq növ üzrə xidmət göstərilməsi insanların əlavə vaxt itkisinin qarşısının alınmasına da imkan yaradır.

DOST mərkəzlərinin coğrafiyası genişlənməkdədir. Dövlətimizin bölgələrə səfəri çərçivəsində açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi sosial obyektlərin sırasında Azərbaycan brendi kimi dünyada tanınan "ASAN xidmət", ABAD, DOST mərkəzlərini də görməkdən məmnunluq hissi keçiririk.

Prezident İlham Əliyev avqustun 7-də Bərdəyə səfəri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışında iştirakı da bunun bariz nümunəsidir. Məlumat üçün qeyd edildi ki, hazırda Azərbaycanda 6 DOST Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə indiyədək 1 milyon 673 min nəfərə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsi 98,2 faiz təşkil edir. 2025-ci ilədək mərkəzlərin sayının 17-yə (o cümlədən Bakıda 5, regionlarda 12), yerlərdə xidmətlərin təşkili məqsədilə filialların sayının 55-ə çatdırılması planlaşdırılır. Qarabağ Regional DOST Mərkəzində 123 işçi çalışacaq, "Könüllü DOST" proqramı üzrə 50 könüllü fəaliyyət göstərəcək. Mərkəzdə gün ərzində orta hesabla 650-700 vətəndaşın qəbulu nəzərdə tutulur. Qarabağ Regional Dost Mərkəzinin əhatə dairəsinə 9 inzibati rayon daxildir. Burada ümumilikdə 770 mindən çox əhaliyə xidmət göstəriləcək. Onlardan 170 mini bilavasitə sosial müdafiəyə cəlb olunan şəxslərdir. Prezident İlham Əliyev, həmçinin Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi ilə də tanış oldu. Hazırda Bakı, Göyçay, Gəncə və Qarabağ Peşə Hazırlığı mərkəzləri fəaliyyət göstərir. DOST Konsepsiyasına uyğun olaraq, Quba, Cəbrayıl, Sabirabad, Şəki, Masallı, Ucar və Şamaxıda da Peşə Hazırlığı mərkəzləri açılacaq. Ümumilikdə 175 peşə və ixtisas üzrə tədris aparılır. Bu sahədə 100-dən çox əlavə təhsil müəssisəsi ilə əməkdaşlıq həyata keçirilir.

Göründüyü kimi, daim yeniliyə, təkmilləşməyə maraq göstərən Azərbaycan imza atdığı ilklərlə dünyanın diqqətindədir. Dövlət başçısı İlham Əliyev bu yeniliklərin işğaldan azad edilmiş ərazilərimizdə də əksini tapmasını qarşıya hədəf kimi qoyub. "ASAN xidmət", DOST mərkəzlərinin yaradılması prioritet məsələlər sırasındadır. Bu da dövlətimizin insan amilinə verdiyi dəyərdən irəli gəlir. Beynəlxalq aləmdə islahatçı Prezident kimi tanınan, idarəçilik təcrübəsi öyrənilən cənab İlham Əliyevin həyata keçirdiyi yenilik və dəyişikliklərin, özünü doğruldan çağırışlarının vətəndaşlar tərəfindən razılıqla qarşılanması xalq-iqtidar birliyinin təzahürüdür.

***Yeganə Əliyeva***

# Empatiya yoxsulu cəmiyyət: Haradan gəldik, hara gedirik?

**Empatiya, insanın özünü qarşıdakı insanın yerinə qoyaraq onun hiss və düşüncələrini düzgün başa düşməsidir. İnsan münasibətləri empatiya vasitəsilə inkişaf edir. İnsanlar arasında münaqişə, empatiya hissi inkişaf etdikcə azalır və yox olur. Empatiya, cəmiyyətdə, ailədə, işdə, məktəbdə, yolda, ictimai nəqliyyatda - hər yerdə ehtiyac duyulan davranış hissidir.**

### İnsan niyə başqalarına qarşı bu qədər aqressivdir?

Gündəlik həyatda, evdə, işdə, məktəbdə və münasibətlərimizdə bir çox stress faktorları ilə qarşılaşır, müəyyən səviyyələrdə münaqişələr, narahatlıqlar, başqaları ilə mübahisə və qarşıdurma yaşayırıq. Bu münaqişələrin baş verməsi təbiidir, çünki əksəriyyətimiz ipi çəkilmiş bomba misalı həyat yaşayırıq. Buna görə də qarşılaşdığımız, səbəbi olduğumuz və ya təsadüfi münaqişələri həll etmək üçün üstünlük verdiyimiz bəzi şüurlu və ya şüursuz üsullar bizə problem yarada bilər. Yaranan problemi kimimiz ünsiyyət yolu ilə, kimimiz də qol gücünə həll etməyə çalışır.



Özümüzü ifadə edə bilmək, duyğularımızı, düşüncələrimizi bölüşmək ünsiyyətin təməl qaydasıdır. Ünsiyyət qurmadıqca, sosiallaşmadıqca bu hisslər içimizdə yığılıb qalır. Ziqmund Freyd deyirdi ki, ifadə edilməmiş duyğular heç vaxt ölmür, onlar sadəcə diri-diri basdırılır və sonra daha dəhşətli şəkildə təzahür edir. İnsan yaşadığı gizli qəzəbi təsadüfi hadisələr zamanı qarşı tərəfə yönəldir.

### Nə qohumluq qalıb, nə qonşuluq...

Aparılan bütün elmi araşdırmalar psixi problemli insanların empatiya hissinin olmadığını deyir. Yəni dəhşətli qətllər törədən qatillər, canilər, təcavüzçülər bu hissdən məhrumdurlar. Buna görə kimisə soyuqqanlılıqla öldürə, doğraya bilirlər. Çünki həmin an başqalarının nə hiss etdiyini heç bilmirlər.

Cəmiyyətdəki münasibətlər də belədir. Xüsusilə, sosiallaşma virtual platformaya keçəndən insanlarda aqressivlik pik həddədir. Nə qohumluq əlaqələri qalıb, nə qonşuluq, nə yoldaşlıq. Siz son illər bir yerə toplaşan qohumlar müşahidə etmisiniz? Ya evində bişəndən qonşusuna pay aparan? Bunlar sosiallaşmanın təməl qaydalarıdır, əvvəllər normal olan, indi anormal kimi qələmə verilən. Ünsiyyət qurmayan insanların bu tələbatı ödənmədiyi üçün aqressiyası içində yığılır, bir gün yolda, işdə, ailədə kiməsə yönəlir. Ya öldürür, ya döyür. Yəni, nəticəsi bütün hallarda təhlükəlidir.

İnsanlar sosial problemlərini həll edə bilmədikləri üçün də aqressiya ilə yüklənirlər. Təsəvvür edin, ailəsinin ehtiyacını ala bilməyən hər hansı bir şəxs var və biz ondan empatiya gözləyirik. O isə başqalarından gözləyir bunu. Yəni, qarşılıqlı təmənna var, amma təminat yoxdur. Zehni, fikri ailə qayğıları, maddi problemlər, dolanışıq dərdi ilə yüklənmiş bir adam aqressiya ilə yüklənir, problemləri onu partlayacaq bomba halına gətirib çıxarıb. Dolayısı ilə yolda, dükan-mağazada, işdə qarşılaşdığı hər hansı bir neqativ vəziyyətdə bu aqressiyasını boşaldır.

Empatiya duyğunun olmamasının arxasında narsisizm, eqo hissi var. Narsist insanlar empatiya qura bilmirlər və başqalarının düşüncəsi onlar üçün əhəmiyyətli deyil. Bu insanlarda hökmranlıq, hakimiyyət, hissi inkişaf edir. Dünyadakı bütün münaqişələrin arxasında da bu hissin yoxsulluğu dayanır. İnsanlara empatiya hissi aşılansa, bu hisslə tərbiyə edilsələr dünyadakı problemlərin böyük faizini münaqişəsiz, qol gücü lazım olmadan həll edərlər.

### Heç kim özünü başqasının yerinə qoymur

Empatiya hissi insana verilmiş ən gərəkli hissdir, insan o zaman müdrikləşir ki, qarşısındakı insanın yerinə özünü qoya bilir. İndi insanlar bu hissi özlərindən uzaqlaşdırıblar. Hamı kinini, nifrətini qusmağa bəhanə axtarır. Xüsusilə, pandemiyadan sonra vəziyyət çox gərgin oldu. İşsiz, təminatsız, sosial çevrəsiz qalan insan bütün pandemiya dövründə aqressiyasını içində böyütdü, bu aqressiyanı əvvəl ailədəkilərə, küçəyə çıxma qadağası ləğv edildikdən sonra ictimai yerlərdə başqalarına, iş yerləri açıldıqdan sonra isə iş yoldaşlarına yönəltdi.



Xüsusilə qeyd etmək lazımdır ki, pandemiya dövründə boşanmaların sayının artmasında empatiya hissinin yoxluğu və ya yetərli qədər olmaması da rol oynadı. Həmin dövrdə bir çoxumuzun yaşadığı sosial-psixoloji və maddi problemlər fonunda baş verən boşanmalarda tərəflər bir-birini başa düşmədən, empatiya göstərmədən ailə bütövlüyünü pozdu. Ailə başçısı işini itirdi, ailənin maddi təminatı zəiflədi deyə ailələrdə problemlər yarandı, aylarla evdə oturmağa məcbur olan tərəflər bir-birini yaxından tanımağa, kəşf etməyə başladılar və əslində, qaranlıqda qalmış bəzi problemləri gün üzünə çıxardılar. Güzəştə getmədikləri, bir-birini anlamadıqları üçün münasibətlərinə son verdilər.

### Urbanizasiya empatiyanı qətl etdi

Cəmiyyətlərin inkişafında şəhərlərin əhəmiyyəti artdıqca, şəhər əhalisinin çoxalması, şəhər həyat tərzinin yayılması özü ilə bərabər həyatımıza çox yenilik gətirdi. Ümumiyyətlə, urbanizasiya həyatımızda çox dəyişiklik etdi. Böyük şəhərlərdə kiçik insanlar daha da kiçildi. Dəyərlərimiz dəyişdi, adətlərimiz fərqli don geyindi, insanlar empatiya hissini tanımadan qəddarlaşdılar. Kiçik qəsəbələrdə, kəndlərdə hələ də yaşayan, yaşadılan isti münasibətlər böyük şəhərlərdə qeyb oldu. Küçədə halı pisləşənə yaxınlaşıb kömək edən olmadı, ayaqüstə gedən qoca sərnişinə yer verən tapılmadı, qonşusunun aclıqdan ağlayan uşaqlarının səsinə qulağını tıxayıb öz evində naz-nemətlə dolu süfrə açmağa utanmadı. Bütün bunların fonunda ətrafımızdan empatiya gözləmək ümidimiz nə qədər cılız görünür, deyilmi?

***Lalə Mehralı***

# Son ümid - BMT



**Vəli Vəliyev**

**Ermənilər nə istəyir, sülh, yoxsa müharibə? Çünki aralıq heç nə olmur. İkisindən birində yaşamalısan. Ermənilər 30 il bundan əvvəl sovet şinelindən çıxanda ölkələrin zəifləmiş damarından tutaraq havadarlarına arxalanıb müharibə yolunu seçdilər. 30 il sonra isə zorla əldə etdiklərini zorla da itirdilər. Yəqin ki, yadınızdadır, Ermənistanın Sarkisyan soyadlı "yarımdoğulmuş" prezidenti də bunu deyirdi. Ərz edirdi ki, biz Qarabağı qanla almışıq. Yəni qanla, müharibə ilə də qaytara bilərik. Nəhayət arzusuna çatdı, işğal etdiyi, yağmaladığı, dağıtdığı, viran qoyduğu torpaqları dabanına tüpürərək tərk etdi yox, toz oldu...**

Müharibədən iki il keçər-keçməz Ermənistanın baş naziri bəyan etdi ki, danışıqlarda Qarabağa aid məsələlərin müzakirəsi aparılmayacaq, çünki onun buna vəkaləti yoxdur. Yəni Qarabağda yaşayan ermənilər qarşısında öhdəliyi də yoxdur. Əlbəttə, bu, ilk baxışdan uğur sayılacaq qədər möhtəşəm göründü. Amma zaman keçdikcə erməni liderin ikibağlı oyun oynadığı üzə çıxdı. Əvvəlcə söylədiyini indi danır, sözünün antonimini sinonim kimi təqdim etməyə çalışır. "Qarabağ Azərbaycanın ərazisidir", deyən Nikol Paşinyan bu gün separatçıların "problemlər"ini qabardır, onların "humanitar fəlakət" yaşadığını harayhəşir salaraq bəyan edir, ev sahibindən icazə almadan Qarabağa yardım "TIR"ları göndərir. Ssenarisi "suya döndən", fiaskoya uğrayandan sonra isə son ümid yeri saydığı BMT Təhlükəsizlik Şurasına müraciətlər edir. O ümid yeri ki, 30 il əvvəl Azərbaycanı ümidsizliyə düçar etmişdi. 4 qətnamə qəbul etsə də, heç birini həyata keçirə bilməmişdi, ya da istəməmişdi. Daha doğrusu buna heç cəhd də etməmişdi.

Avqustun 16-da Vaşinqton vaxtı ilə saat 15:00-da BMT Təhlükəsizlik Şurasının 5 daimi, 10 qeyri-daimi üzvləri bir araya gələcək və Qarabağdakı ermənilərin harası ilə yemələrinin yollarını müzakirə edəcəklər. Bəs nə bilmişdiniz, sən demə "ac", "susuz", mədə divarları bir-birinə sürtülməkdən "mazol"u çıxmış ermənilər Ağdam tərəfdən gələn qidanı qəbul etməkdə çətinlik çəkirmişlər. Onların iştahası yalnız Laçın tərəfdən gələn qidalara kodlaşdırılıb. Əks təqdirdə qida qəbul etməmək səbəbindən gəbərib gedəcəklərmiş. Guya ki, dünyanın ağıllı başları, kos-koca dövlətləri də erməni bəhanələrindən bixəbərdirlər. Atalar məsəlidir, "ac qılınca çapar", yəni ac adam qidanın haradan - göydən, yerdən, sağdan, soldan gəldiyinin fərqinə varmaz, hətta tiyəsi pambıq kəsən qılıncın üstünə də tərəddüd etmədən gedər. Dünyanın inkişaf etmiş iri dövlətlərini, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvlərini başa düşdük, onlar aclıq nədir bilməzlər, ömrü boyu da başqa millətlərin, müstəmləkə altında inlətdikləri xalqların hesabına özlərinə xoş güzəran düzəldiblər. Bəs qeyri-daimi üzvlər arasında olan kasıb, inkişafdan geri qalmış, xalqı aclıq yaşayan ölkələr niyə erməni yalanlarına uyurlar? Niyə dünyanın harın, gözləri ayaqlarının altını görməyən, həqiqəti yalana qurban verən dövlətlərinə aclığın nə olduğunu başa salmırlar, anlatmırlar? Demirlər ki, ay ağalar, aclıq belə olmur. Ac adam əppəyin kimdən gəldiyinin fərqinə varmaz, haram-halallığı da bir anlıq unudar. Amma bu ermənilər "aclıq" sözünü belə təhqir edirlər, dünyada yardımlaşma missiyasına ləkə vururlar, etibarı bütövlükdə dəfn edirlər.

Hərdən Beynəlxalq Qırmızı(Qızıl) Xaç Komitəsinə (BQXK) yazığım da gəlir. Görün, bu beynəlxalq təşkilat nə günə düşüb ki, hətta ermənilərin yalan maşınına təkər olmağı da özlərinə sığışdırıblar. Ermənilərin BQXK-nin maşınlarında qanunsuz, xüsusən də hərbi təyinatlı yükləri daşımaları bu təşkilatın nüfuzuna ölümcül zərbə vurduğu da kimsəni narahat etmir. Halbuki, bu maşınlarla yalnız humanitar yüklər daşınmalıdır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin bu günə qədər mübahisəyə birdəfəlik son qoyacaq bircə bəyanatını belə eşitmədik. Komitənin Bakıda da bürosu var, niyə ermənilərə yükləri Ağdam istiqamətindən də gətirə biləcəklərini demir? Bəlkə, Bakı bürosu başqa işlərlə məşğuldur, bizim xəbərimiz yoxdur? Bütün hallarda humanitar yardımla məşğul olan bu təşkilatın da deyəcəyi çox sözlər var, amma...

Ermənilərin bütün ümidləri BMT Təhlükəsizlik Şurasının toplantısınadır. Ermənistanın XİN başçısı Ararat Mirzoyanın son xarici səfərləri siyahısına nəzər saldıqda işğalçı ölkənin əsl niyyətini ifşa etmiş olarıq. Erməni rəhbərlər üzdə "Qarabağ Azərbaycan ərazisidir" desələr də, astarda fərqli mövqedə dayanıblar. Onlar Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlərini də inandırmağa çalışıblar ki, Azərbaycanın etdikləri qanunsuzdur və adekvat addım atmaqla qətnamələr, hətta sanksiyalar tətbiq etmək olar. Postmüharibə dövründə ermənilərin yalan təkidi üzərindən beynəlxalq təşkilatlarda, o cümlədən BMT TŞ-də bəzi müzakirələr aparılıb. Amma ümidlər arzu olaraq qalıb. İnanırıq ki, dünya ölkələri həqiqəti bir daha çeynəməz, haqlının tərəfində dayanar, erməni yalanlarına boyun əyməzlər. Və bununla da ermənilərin və Ermənistan rəhbərliyinin son ümidi də dəfn edilmiş olar.

# "Malayziyada açılan səhər" romanı çapdan çıxdı




Tanınmış jurnalist, yazıçı-publisist İlham Əliyevin növbəti kitabı çapdan çıxıb. "Malayziyada açılan səhər" adlanan romanda hadisələr 2003-cü ildə cənub-şərqi Asiyada baş vermiş dəhşətli təbii fəlakət- 300 min insanın ölümünə səbəb olan sunami zamanı yaşanan hadisələr əsasında cərəyan edir. Ölkələrin, xalqların üzləşdikləri bəşəri fəlakət zamanı insan tacirləri öz biznes maraqlarından əl çəkmirlər. Sunamidən sonra İndoneziya sahillərində baş verən dağıntılar altından xilas edilən kimsəsiz uşaqlar insan alverçilərinin qurbanına çevrilirlər. Həmin qurbanlardan biri də Faruk olur. Faruk İndoneziyanın ən ucqar adalarından olan Mare adasına aparılır. Lakin bəxt, tale onun üzünə gülür. Malayziyadan Mare adasına qonaq gəlmiş nəcib, səyirxah xanım Klara Farukla rastlaşır və onu 4 il əvvəl ölmüş oğluna bənzədir. Xanım Klara onu himayəyə götürmək üçün çalışır, çarpışır və nəhayət, böyük məbləğdə pul ödənişi qarşılığında ona hamilik icazəsi alaraq Malayziyaya gətirir. Romanda hadisələr Farukun qonşu ölkədə yaşayışı, böyüdükcə özünə yeni dostlar tapması ilə davam edir.

Qeyd edək ki, müəllifin indiyədək çap olunmuş əsərləri geniş oxucu kütləsinin marağına səbəb olub. "Qanlı vadi", "Gecənin rəngi", "İncə dərəsi", "İnsanlığa xidmət" əsərləri maraqla qarşılanıb. "Qafqazda imperiyalar və ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi" əsəri Rusiyada rus dilinə tərcümə olunaraq dərc edilmişdir.

İlham Əliyev çox sayda publisistik əsərin müəllifidir. Azərbaycan Prezidenti tərəfindən "Tərəqqi" medalı və "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür. Hazırda jurnalist kimi fəaliyyətini davam etdirir, eyni zamanda Hüquqi və Demokratik İslahatlar Mərkəzinin rəhbəridir.

# Əli Kərimlinin şər maşını susmaq bilmir






Deyəndə və yazanda ki, bu müxalifətin dağıdıcı qanadı maddi-mənəvi dəstəyini yerli və xarici məkrli qüvvələrdən alırlar, sözümüzü, yazımızı bəzi şəxslər şübhə altına alıb dodaq büzürdülər. Ancaq elə ki, faktları, sübutları qarşılarına qoymaq mümkün oldu, susdular, danışmağa nə dilləri, nə də cəsarətləri oldu. Sadəcə, bəzi insanlar təmsil olunduqları partiyalardan istefa verməklə Əli Kərimliyə, Cəmil Həsənliyə, Tofiq Yaqubluya və digərlərinə etirazlarını nümayiş etdirdilər. Ancaq bu, çıxış yolu deyil. Gərəkdir ki, xəyanət və satqınlıq yolu tutan müxalif partiya sədrlərinin kreslolarını boşaltmaları üçün birlik və bərabərlik göstərmək lazımdır. Qüdrət Həsənquliyev, Fazil Mustafayev, Razi Nurullayev, Asim Mollazadə, Sabir Hacıyev, İqbal Ağazadə, Tural Abbaslı və digər şəxslər partiya sədrlərinin açıq şəkildə xarici maraqlı dairələrlə əməkdaşlıq əlaqələri qurmaqla Azərbaycanın milli və dövlətçilik maraqlarını satmaq hesabına özlərinə maddi yardım almalarını həzm edə bilmədiklərindən istefa verdilər. Əslində, onlar partiyalardan getməzdən öncə xarici maraqlı qüvvələrin pas atmış qazanlarının dibini yalayıb, sonra da xalqa qarşı düşmən mövqe sərgiləyən sədrlərin istefasını tələb etməli idilər. Bunu etməyiblərsə, deməli, onların siyasi biliklərində qüsurlar var. Həm də hadisələrə etinasız yanaşıblar. Yəni, "cəhənnəmə satqınlıq etsinlər də, mənə nə" deməklə kifayətləniblər. Dərk etmirlər ki, satqınlığın, xəyanətin nəticəsi idi ki, ötən əsrin 90-cı illərin əvvəllərində ölkədə xaos və anarxiya hökm sürmüşdür, bundan da istifadə edən ermənilər torpaqlarımızı işğal etmişdirlər. Kim qarantiya verə bilər ki, satqınlıq yolu tutan Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və digərləri sabah fars-molla rejimi ilə işbirliyinə gedərək və ya erməni separatçıları ilə əməkdaşlıq etməklə Azərbaycandakı ictimai siyasi sabitliyi pozmağa cəhd etməyəcəklər. Nəzərə almaq lazımdır ki, "Milli Şura"nın sədri Cəmil Həsənli ermənilərin humanitar yüklərin göndərilməsi üçün Laçın keçid məntəqəsinin açılmasının vacib olduğunu bildirir. T.Yaqublu açıq şəkildə Koçaryan, Sarkisyan, Artunyan, Vardanyan və digər revanşist "yan"lar kimi danışır. Deyir ki, "Zəngəzur dəhlizi Ermənistanın maraqları nəzərə alınmadan açıla bilməz". Ə.Kərimli Sevinc Osmanqızının TV-sinə müsahibəsində ordumuzun Qaragöl istiqamətində mövqelərini irəli çəkərək möhkəmlənmə işləri aparmasını Azərbaycanın təxribatı adlandırır. Erməni düşüncəsi ilə çıxış edən siyasətçinin "mən Azərbaycanda doğulmuşam və azərbaycanlıyam" deməsi şübhələr yaradır. Həm də ehtimallar yaradır ki, belə şəxslər ya erməni lobbisinin ayırdığı maliyyə vəsaitindən qidalanırlar, ya xaricdəki güclü əl onları ermənipərəst mövqedən çıxış etməyə məcbur edir.

### Wolt sifarişlərini çatdıran kuryerlər: "Əli Kərimli adlı şəxs tanımırıq və tanımaq da istəmirik"

"Wolt Azərbaycan" MMC-nin fəaliyyətinin dayandırılması ilə bağlı məlumatların yayılmasından sonra dağıdıcı müxalifət funksionerləri hay-küyçü fəaliyyətlərini bir qədər də genişləndiriblər. Sual yaranır, niyə məhz "Wolt Azərbaycan" ətrafında müxalifət ucuz siyasi divident qazanmağa çalışır? Nədən dəfələrlə "Wolt Azərbaycan" MMC-nin işçiləri şirkətin fəaliyyətindən narazılıqlarını bildirib, etiraz aksiyaları keçirəndə Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli, Seymur Həzi və digər dil qəhrəmanları danışmırdılar? Yoxsa, ehtiyat edirdilər ki, xarici ağalarının qəzəbinə tuş gələ bilərlər? Dağıdıcı müxalifət Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi "Wolt Azərbaycan" MMC-nin fəaliyyətinin dayandırılması barədə qərar qəbul etdikdən sonra şirkətin işçiləri olduğunu biliblər. Məzhəkə və ucuz şou yaratmaq da bundan sonra başlayıb. AXCP sədri Əli Kərimli, Milli Şuranın üzvü Tofiq Yaqublu, Milli Şuranın üzvü Gültəkin Hacıbəyli, AXCP sədrinin müavini Seymur Həzi, AXCP RH-nin Asif Yusifli, AXCP-dəki trol dəstəsinin başçısı, AXCP RH-nin üzvü İlham Hüseyn və digərləri xor dərnəyinin diribaş üzvləri kimi ağız-ağıza verib "Wolt Azərbaycan"ın bağlanması ilə bağlı hərəsi bir nağıl danışır, uydurma fikirlər səsləndirir. Tofiq Yaqublu adlı "siyasət"çi boynundan hündür tullanmağa çalışan bacarıqsız həndbolçu kimi "Wolt Azərbaycan" MMC-nin bağlanması ilə bağlı cəfəng fikirlər qeyd edib: "Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) "Wolt Azərbaycan" MMC-nin fəaliyyətinin dayandırılması ilə bağlı məlumat yayıb ki, yeməklər sifarişçilərə çatdırılarkən temperatur rejimi pozulurdu və bu, məhsulun xarab olmasına səbəb olurdu ki, bu da insanların sağlamlığına ciddi təhlükə yaradırdı. Tutaq ki, belə problem varıydı, niyə o məhz indi yadınıza düşdü? Əlbəttə ki, vicdansızcasına yalan danışırlar, istər yay olsun, istər qış, hazır yeməyin 5-10 dəqiqə yolda olması onun keyfiyyətinə heç cür təsir edə bilməz. Əgər sizi doğrudan da qida təhlükəsizliyi narahat edirsə, başda 8-ci km bazarı olmaqla ölkənin bütün bazarlarını başına götürmüş antisanitariyadan niyə narahat olmursunuz?". Əli Kərimli də T.Yaqublu kimi boş-boş fikirlər söyləyir. Bir növ yarışın önündə olduğunu nümayiş etdirməyə çalışır. Lakin anlamır ki, hər kəsin sağlam qidalanması dövlətin ali məqsəd və vəzifələrindəndir. Sabah kimsə kuryerin çatdırdığı qida məhsulundan zəhərlənərsə və həyatını itirərsə, o zaman qınaq obyekti dövlət qurumu, əsasən də Qida Təhlükəsizliyi Agentliyi olacaq. Ona görə də cəmiyyət, o cümlədən, "Wolt Azərbaycan" MMC-də çalışmış işçilər dağıdıcı müxalifət funksionerlərinin söylədiklərini mənasız və əhəmiyyətsiz hesab edirlər. "Sahil" metrostansiyasının yaxınlığında Wolt sifarişlərini çatdıran kuryerlərin bəziləri ilə söhbət etdik. İlk olaraq Famil adlı kuryer bildirdi ki, KİV-də yazılanların əksinə olaraq, onlar işsiz qalmayıblar, fəaliyyətlərini davam etdirirlər. Həsən adlı kuryer isə sosial şəbəkələrdə Əli Kərimli adlı birinin "Wolt Azərbaycan"ın bağlanması ilə bağlı statusuna rast gəldiyini və yazılanların sərsəm ifadələrdən başqa bir şey olmadığını söylədi. Dostunun dediklərini haqlı hesab edən Mahir adlı kuryer isə "Əli Kərimli adlı şəxsi tanımadığını və tanımaq belə istəmədiyini" bildirdi.

### "Wolt Azərbaycan" müxalifətə etiraz edir

Bir sözlə, söhbət əsnasında ümumi fikir ondan ibarət oldu ki, Wolt sifarişlərini çatdıran kuryerlər dağıdıcı müxalifətin və onların təsiri altında olan sosial şəbəkə istifadəçilərinin yazdıqlarını şər və böhtan hesab edirlər. Haqlı və layiqli yanaşmadır. Əgər Əli Kərimli və trol dəstəsi cəmiyyət arasına çıxsalar bizə deyilənləri, onların da sifətinə deyərlər. Son olaraq bir daha qeyd etməyi vacib hesab edirik ki, "Wolt Azərbaycan" MMC-nin fəaliyyətinin dayandırılması ilə bağlı məhdudlaşdırıcı qərarın təkrar tətbiqi barədə qərar qəbul edilib. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) istinadən xəbər verir. Bildirilib ki, agentlik qida təhlükəsizliyinin təmin olunması və istehlakçı hüquqlarının müdafiəsi istiqamətində tədbirləri davam etdirir. Belə ki, "Wolt Azərbaycan" MMC-yə məxsus qida məhsullarının çatdırılması (daşınması) müəssisəsində aparılmış planlı yoxlama çərçivəsində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların bir sıra tələblərinin pozulması faktları aşkarlanıb. Müəssisənin "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununa zidd olaraq qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, qida məhsullarının istehlakçılara çatdırılması zamanı isti və soyuq zəncirin qorunmadığı, məhsulların temperatur rejimi və mal qonşuluğu qaydaları pozulmaqla daşındığı, həmin nəqliyyat vasitələrində dezinfeksiya işlərinin aparılmadığı, qida məhsullarının çatdırılmasında iştirak edən şəxslərin tibbi müayinədən keçmədikləri müəyyən olunub. Aşkarlanmış nöqsanlarla əlaqədar sözügedən müəssisə tərəfindən qida məhsullarının çatdırılması fəaliyyətinin dayandırılması, ilkin və dövri tibbi müayinədən keçməyən şəxslərin müəssisədən kənarlaşdırılması ilə bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilib. Eyni zamanda, MMC-nin məsul şəxsi barəsində müvafiq tədbir görülüb. Daha sonra isə qəbul edilmiş qərarın icra vəziyyətinin yoxlanılması ilə əlaqədar "Wolt Azərbaycan" MMC-də plandankənar yoxlama keçirilib. Yoxlama zamanı şirkət tərəfindən nöqsanların aradan qaldırılmadığı, həmçinin, fəaliyyətinin dayandırılmasına baxmayaraq, fəaliyyət göstərdiyi müəyyən olunub. Bununla əlaqədar, qanunvericiliyin tələblərinə uyğun olaraq, həmin müəssisənin fəaliyyətinin dayandırılması ilə bağlı məhdudlaşdırıcı qərarın təkrar tətbiqi barədə qərar qəbul edilib. Eyni zamanda, tələblər yerinə yetirilmədiyinə görə, cəmiyyətin məsul şəxsi barəsində müvafiq tədbir görülüb. Göstərilənlərə əsasən, AQTA insanların həyat və sağlamlığının qorunması, istehlakçıların hüquqlarının müdafiəsi məqsədilə bir daha ictimai iaşə müəssisələrinin rəhbərlərini qidaların daşınmasını və istehlakçılara çatdırılmasını yalnız qeydiyyatdan keçmiş və temperatur rejimi təmin olunan avadanlıqlara (nəqliyyat vasitələrinə) malik, qida ilə təmasda olan şəxsləri tibbi müayinədən keçmiş qida subyektləri tərəfindən həyata keçirilməsini təmin etməyə çağırıb.

**İ.ƏLİYEV**

---



MƏTANƏT

# "Araz" supermarket: həm tərlədir, həm çərlədir...

**Söhbət "Araz"ın metronun "Şah İsmayıl Xətai" stansiyasının yaxınlığında yerləşən filialından gedir. Bu "Araz" nə üçün düzəlmir, nə üçün öz işini qura bilmir, maraqlıdır. Nə vaxt bu marketə girirsənsə, bir yox, beş problemlə üzləşirsən. Məsələn, bunlardan biri odur ki, baxmayaraq ki, marketdə bir neçə kassa var, lakin bir kassa, təsadüf nəticəsində isə iki kassanın işlədiyini görürsən. Görünənlərdən biri də odur ki, kassanın qarşısında daim alıcıların gileyi ilə qarşılaşmaq mümkündür. Məsələn, dünən də alıcı endirimli məhsul götürmüşdü, lakin kassa qarşısında problem yaşayırdı. Çünki məlum olmuşdu ki, bu məhsul əslində endirimdə deyil. Ağsaqqal kişi də götürüb marketin o başından gəlib bu başına, sonra da ki, belə...**

Elə ayın 14-də saat 17 ilə 18 arasında "Araz" supermarketdə yenə də problem yaşanırdı. Həm də necə problem. Özlərinin də dediyi kimi, "sən harada, "Araz" orada" kimi deyil, "Araz harada, problem orada" kimi...

Deməli, bir təsadüf idi ki, kassaların 3-ü də işləyirdi, lakin qarşısında izdiham hökm sürürdü. Market də o qədər isti idi ki, camaat tər axıdırdı. Maraqlıdır, görəsən burada havalandırma sistemi nə üçün yoxdur? Varsa, niyə işləmir? Yoxsa, nə düşünürlər bu barədə?

Nə isə, isti qalsın öz yerində, daha dəhşətli bir vəziyyət o idi ki, kassaların heç birində kart işləmirdi. Zor-billah ilə növbə yaxınlaşanda, ödəniş edəndə məlum olurdu ki, kart işləmir. Gəl, müştəri, bu dəfə gəl, bu istidə gör nə edirsən? Nə edəcəksən ki, kassada çalışanlar sənə yol da göstərirdilər: bankomat bayırdadır, get, pul çək, gəl...

Bu dəfə isə bilmək olmurdu ki. cin səni vurdu, yoxsa sən cini. Nə etməli, pulun var, ödə, yoxdursa, yol aydındır. Belə də dərd olar? Axı nə üçün "Araz"a hər girdiyimizdə problemlərlə üzləşməliyik. Nədir camaatın günahı ki, bu isti havada başına belə müsibətlər gəlir? Axı problem bir dəfə olar, deyərsən ki, iş olan yerdə çətinlik də ola bilər. Axı gün ərzində milyonlarla qazanc əldə edən belə böyük marketlər şəbəkəsinin bir filialında nə üçün bu cür problemlərlə üzləşməliyik? Həm də tər axıda-axıda.

Market yaxşı yerdə, yəni məhəllə sakinlərinin ən çox keçdiyi yol üzərində yerləşir. İnsanlar da nə etsin, yollarının üzərində olduğu üçün keçib ehtiyac olanları almaq istəyirlər. Lakin hər dəfə bu marketdən problem yaşamadan çıxmaq mümkün deyil. Odur ki, sualı olunur: "Araz"ın dərdi nədir? Çatışmayanı nədir, ki, işini qura bilmir?

Bir gün yanlış endirim, bir gün endirimli qiymətə olan məhsulun əvvəlki qiymətə satışı, bir gün kassa problemi, bir gün kart problemi, hər gün də içəridəki isti hava problemi. Vallah, yenə deyirəm, başqa filiallarla nə işimiz, lakin adını çəkdiyimiz filialda "sən harada, "Araz" orada" deyilən bir şey yoxdur. "Araz harada, problem orada" məsələsi gündəmdədir ki, bu da müştəri itkisinə aparan çağırışdır. Allah özü bizlərə səbir, "Araz" süpermarketin kollektivinə insaf versin ki, bu problemlərdən azad ola bilək. Bu market niyə işini qura bilməsin axı? Maraqlı budur...



# İnsanlara nəzarət etməyi niyə sevirik?

***Ətrafımızda "Heç kim bir işi mənim qədər təfərrüatlı düşünüb, daha yaxşı bacara bilməz" deyənlər var. Onlar hər şeyin ən yaxşı olduğuna əmin olana qədər dizayn edir, həyata keçirir və tətbiq edirlər. Kifayət qədər yorucu olan bu səy özü ilə çox narahatlıq gətirir. Bu narahatlıq nəticəsində insan hər kəsin və hər şeyin onun nəzarətində olmasını istəyir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



Nəzarətdən kənar baş verən ən kiçik vəziyyət və ya dəyişiklik bu tip insanı çox narahat edir. Ən kiçik bir uğursuzluq və ya manea ilə qarşılaşdıqda, yaxud işlər planlaşdırıldığı kimi getmədikdə, həyatının ortasına nəzarəti qoyan insanlar inanılmaz dərəcədə qəzəbli və gərgin ola bilərlər. Bu şəxsin ailəsi və yaxın ətrafı o insanı tanıdıqları və bu prosesə çox öyrəşdikləri üçün anlayışlı ola bilərlər. Halbuki fərdin iş və ictimai həyatı davranışlarını bilmədiyi onlarla insanla doludur və bunun kifayət qədər çətin olacağı ehtimalı var. İçində olduğu vəziyyət fərdin davamlı stress keçirməsinə, çox yorğun və ya dözülməz hala gəlməsinə səbəb olur.

Nəzarət etməkdən yorulan və buna son qoymaq və psixoloji məsləhət almaq istəyən insanlar çoxdur. Bu şəxslərə "Nəzarət etmədikdə nə baş verir?" sualı verildiyi zaman "Geriləmə ola bilər, istədiyim kimi olmaya bilər, səhv edə bilərəm, tənqid oluna bilərəm, hərəkətlərim bəyənilməyə bilər" kimi cavablar alınır. Bu cavablar başqa bir vacib səbəbi, uğursuzluq qorxusunu ortaya qoyur. İnsan səhv etməkdən və ya qeyri-kafi olmaqdan o qədər qorxur ki, heç bir şeyi şansa buraxmaq istəmir. Onlar vasvası, nizamlı, planlı, proqramlı, mükəmməllikçi, sərt qaydalar, yəni obsesif şəxsiyyətlərdir.

Tənqid və mühakimələrə dözə bilmədiklərinə və ya ən çox qorxduqları şeyə görə daima mükəmməlliyə nail olmaq üçün özlərini itələyirlər. Buna görə də hər bir işi ən təfərrüatlı şəkildə dizayn edir və bunu özləri idarə etmək istəyirlər. Onlar heç kimə məsuliyyət verə bilməzlər. Məsuliyyət verəndə aldıqları işi yenidən yoxlayırlar. Çünki onlara görə heçkimə etibar etmək olmaz. Bu səbəbdən beş nəfərin işini tək görür və imkanlarından artıq enerji ilə çalışırlar. Həmişə panik vəziyyətində olurlar. Onlar həm fiziki, həm də əqli cəhətdən yorğundurlar. Mənfi hissləri var, çünki zehinləri neqativlərlə, həmişə bir problem və ya səhv bir şey olacağı düşüncələri ilə doludur. Nəticədə depressiya qaçılmaz olur. İstəksiz, yorğun, heç nədən həzz almayan, çox həssas və kövrək olaraq həyatlarına davam edirlər.

Bu ağır yüklərin öhdəsindən gəlməyə çalışan insanlar bəzi fizioloji problemlərlə qarşılaşa bilərlər. Özünü yorğun və narahat hiss etmək, rahat yata bilməmək, daim düşünmək, baş ağrısı, çiyin və bel ağrıları, nəfəs darlığı, tərləmə və ürəyin sıxılması simptomlar arasındadır.

Nəzarət həyatımız üçün çox vacib bir anlayışdır. Bu, narahatlıq pozuqluğu, panik atak, obsesif-kompulsif pozğunluq kimi problemlərə səbəb olur. Panik ataklar nəzarəti itirməkdən qorxur. Obsesif kompulsif pozuqluq da nəzarəti hiss edə bilmir və hiss etmək üçün hər şeyi idarə edir. Əslində, nəzarəti itirmək hissi və nəzarəti bərpa etmək cəhdi var. İnsan öz daxili aləmində idarə edə bilmədiyi hiss və düşüncələrini xarici simvollar vasitəsilə idarə etməyə çalışır.

## Niyə insanlar özlərini hər şeyə nəzarət etmək məcburiyyətində hiss edirlər?

Hər kəsin hekayəsi fərqlidir. İlk növbədə, insanı bu davranışa sövq edən səbəblərə diqqət yetirmək lazımdır. Misal üçün, ana tez-tez uşağının yediyi yeməklə məşğul olur. Onu yox, bunu yeməlidir, bu qədər yeməlidir, sağlam çəkidə olmalıdır və s. Təsəvvür edək ki, siz daim uşağınızı nəzarətdə saxlayırsınız. Ananın övladının nə yediyinə bu qədər qarışmasının səbəblərini araşdırmaq üçün onun uşaqlıq təcrübələrinə nəzər salmaq çox vaxt bir çox sualın cavabıdır. Çünki bu ananın uşaqlıqda artıq çəkisi olub, dostları onu ələ salıb, hətta ona ləqəb də qoyublar. Onun bu ləqəblərlə çağırılması, bəlkə də, indiki ananın uşaqlıqda böyük xəcalət çəkməsinə və özünü çox pis hiss etməsinə səbəb olub. Məsxərəyə qoyulmaq, bəyənilməmək o zaman ananı əsəbləşdirmiş ola bilər. Əgər piylənmə o balaca uşaq üçün travmadırsa, o, yetkinlik çağında övladının qidasına nəzarət edir və ya uşağını qorumaq üçün onun yeməyinə nəzarət edir ki, övladı bu xəstəlikdən əziyyət çəkməsin. Yaxud heç belə bir travma yoxdur, o, mükəmməl bir anadır və hər şeyin qaydaya uyğun olmasını istəyir.

## Nəzarət davranışı ilə necə məşğul olmaq olar?

Psixoterapiyada bəzi nəzəriyyələr erkən təcrübələrə, digərləri isə gündəlik həyatda narahatlıq və obsesif düşüncələrin tətikləyicilərinə diqqət yetirir. Hansı yanaşma olursa olsun, məqsəd budur: nəzarət ehtiyacını azaltmaq və narahatlığı funksional etmək.

ARAŞDIRMA

*Ardı Səh. 13*



**Elçin Bayramlı**

# Avtoterrorun 7 səbəbi

**2020-ci ildə avtoqəzalarda 696, 2021-ci ildə 706, 2022-ci ildə isə 757 nəfər həlak olub. Göründüyü kimi, ildən ilə avtoqəzalarda ölənlərin sayı artır. Bir sözlə, yollarda sanki elan olunmamış vətəndaş müharibəsi gedir. Bu, əsl müharibədir- sürücülərin öz arasında və sürücülərlə piyadalar arasında. Bu müharibədə indiyədək ermənilər apardığımız müharibədən daha çox qurban vermişik. Və bu müharibə dayanmır. Minlərlə insan məsuliyyətsiz sürücülərin ucbatından həyatını itirir, şikəst olur, ailələr bədbəxtliyə düçar olur.**

Bəs səbəblər nədədir? Dövlət Yol Polisi rəsmiləri bunun səbəbini avtomobillərin sayının artması və sürət həddinin açılması kimi səbəblərlə izah etməyə çalışsa da, fikrimizcə, burada başqa səbəblər də var.

Avtomobillərin sayına gəldikdə, Azərbaycan əhaliyə nisbətdə avtomobil sayının az olduğu ölkələrdəndir. Yəni, qəzalarda bu arqument keçərsizdir. Sürət həddi isə əsaslı arqumentdir. Bəli, ağır qəzaların səbəbləri arasında ən əsası sürət həddinin aşılmasıdır. Xüsusən də, şəhərlərarası yollarda buna daha çox rast gəlinir. Hətta avtobusların çoxu yolverilən sürət həddini xeyli dərəcədə keçir. Məqsəd məsafəni daha tez qət etmək və qısa vaxtda daha çox gəlir əldə etməkdir. Nəinki mikroavtobusda, hətta iri avtobusların da 110-la getdiyim yolda saatda 150 ilə yanımdan şütüyüb keçməsinin şahidi olmuşam. Halbuki, avtobusların bu yolda 90 km/saat-dan artıq sürətlə getməsi qadağandır.

Ən dəhşətlisi orasıdır ki, 50 nəfər daşıyan avtobusun sürücüsünə sərnişinlərdən heç kim irad bildirmir, normal sürətlə sürməsini tələb etmir. Çünki onlar da mənzilbaşına mümkün qədər daha tez çatmağa çalışırlar. Burada sürücü və sərnişinlər arasında yazılmamış qanun, gizli razılaşma var sanki. Bax, bu sürətli həyat tərzi əksər faciələrin səbəbkarıdır.

Mikroavtobuslarda isə vəziyyət daha təhlükəlidir. Bu maşınlar magistrallarda 150 km/saat-dan yuxarı sürətlə gedirlər. Bəzən isə 180-200 km/saat sürətlə. Halbuki, bu yolların infrastrukturu 120 km/saatdan yuxarı sürət üçün uyğun deyil və bu, aşkar qəza deməkdir.

Problemlərdən biri yük maşınlarının sürücüləri ilə bağlıdır. Onlar da əksər yol hərəkəti qaydalarına riayət etmir, təhlükəli sürürlər. Çünki işlədikləri şirkət qarşılarına daha tez və daha çox işləmək tapşırığı qoyur, bəzən sutkada 15-16 saat sükan arxasında olurlar. Üstəlik, bu maşınlar əksər hallarda icazəverilən normadan 2-3 dəfə artıq yüklənir ki, bu da potensial ölüm maşını deməkdir. Onsuz da bu avtomaşınların əksəriyyətinin texniki vəziyyəti ideal deyil.

Sürücülərin yorğunluğu da qəzaların səbəbləri arasındadır. Ekspertlərin rəyinə görə, uzun yola çıxanda göz və beyin yorulur və sürücünü yuxu tutduğuna, ən azı beyin reaksiyaların ciddi şəkildə azalmasına görə, hər iki saatdan bir dayanıb istirahət etməlidir. Sürücülərin çoxu buna fikir vermir. 6-7 saatlıq yolda maksimum bir dəfə dayanırlar- o da, məcburən- yemək üçün.

Daha bir səbəb isə yol infrastukturunun, yol nişanlamalarının qaydasında olmamasıdır. Xüsusən də, təmir işi aparılan yollarda nişanlamaların düzgün qoyulmaması gecə vaxtlarında maşınların qazılmış çalalara düşməsi, işqlandırılmayan yollarda qəzaya düşməsi ilə nəticələnir. Düzdür, son dövrlərdə ölkəmizin əksər avtomobil yolları yenidən qurulub və standartlara cavab verir, lakin hələ də təhlükəli yollar var.

Vacib faktorlardan biri də yol hərəkəti qaydalarını bilməyən bəzi sürücülərin sürücülük vəsiqəsini hansı üsullasa almasıdır. Müşahidələrdən görünür ki, ölkəmizdəki sürücülərin çoxu təzədən imtahan versə, heç cür keçə bilməzlər.

Səbəblərdən biri də bəzi yol polislərinin "qarşılıqlı hörmət" prinsipi ilə işləməsidir. Qaydanı pozan sürücüdən, ya da avtoşlardan "5-10 manat" alıb yola davam işarəsi vermək qarşıdakı dəqiqələrdə daha bir neçə nəfərin cəsədlərinin yola səpələnməsinə bilərəkdən şərait yaratmaqdır. Bəzi sürücülər isə yuxarı yerlərdəndir, məsələn, vəzifəli şəxsin qohumudur, onu saxlayan polis o saat "buyurun, yola davam edin, bağışlayın, bilməmişik ki, "Həsən ağa"nın qohumusunuz" deməyə məcbur olur.

Daha bir səbəb piyadalarla bağlıdır. Əksər piyadaların hərəkəti xaotik və məsuliyyətsizcəsinədir. Bəzən avtobanlarda özləri yolun ortasına atır, bəzən yeraltı piyada keçidlərinin düz üstündə sürətli yola çıxır. Məhz bu səbəbdən, piyada vurulması ilə nəticələnən qəzaların yarıya yaxını piyadaların günahı ucbatından baş verir.

Bu səbəblərdən, ölkəmiz avtoqəzaların, qəzalarda ölümlərin sayına görə dünyada öncül yerlərdədir. Bütün bu səbəblər aradan qalxmayınca, belə faciələrin də ardı-arası kəsilməyəcək. Problemin nəticələri ilə yox, səbəblərinin aradan qaldırılması ilə uğraşmaq lazımdır.

# İnsanlara nəzarət etməyi niyə sevirik?



Əvvəli səh. 12

Nəzarət ehtiyacının arxasında duran disfunksional düşüncələri funksional düşüncələrlə əvəz etməyə çalışırıq.

Bəziləriniz üçün sevgilinizin, yaxud həyat yoldaşınızın davranışının sevgi və ya nəzarət edici olduğunu ayırd etmək asan olmaya bilər. Həmçinin, həqiqətən darıxan və bütün günü sizinlə danışmaq istəyən partnyor sizə tez-tez mesaj yazmaq və imkan daxilində zəng etmək istəyə bilər. Belə ki, birlikdə yaşamırsınızsa, səhər ilk iş sizinlə əlaqə saxlaya bilər. Nəzarət edən tərəfdaş həyatın hər anını sizinlə bölüşməyə çalışır. Ancaq bəzi hallarda bu davranışın səbəbi sizinlə ünsiyyət qurmaq istəyi deyil, onun hiss etdiyi qorxu və etibarsızlıqdır. Sizinlə daimi təmasda olmaq, demək olar ki, içməli olduğu bir dərmandır. Çünki bu, sizin ona sahib olduğunuz əminliyini verir.



## Nəzarət edən şəxs qadın və ya kişi ola bilər

Onların bir çoxu problemli valideyn və keçmiş münasibətləri yaşayıblar. Sevən bir tərəfdaş sizi danlamaz, ələ salmaz, məşğul olduğunuzda və ya dostlarınızla birlikdə olduqda sizi təqib etməz. Nəzarətçi tərəfdaşdırsa, öz qərarlarınızla atdığınız hər addımı, etdiyiniz hər ictimai fəaliyyəti təhlükə olaraq qəbul edir və bunun qarşısını almağa çalışır. Bu tip insanlar hərəkətlərini ”çox darıxmaq, ayrı olmamaq, qayğı göstərmək, sahib olmaq, qorumaq, qısqanmaq” kimi şərtlərlə hər kəsin xoşuna gələ biləcək səbəblərlə əsaslandırır.

Tərəfdaşınızın sizə nəzarət edib-etmədiyini öyrənmək üçün aşağıdakı sualı verə bilərsiniz:

"Mən də sənin üçün darıxıram. Amma hazırda məşğulam və danışa bilməyəcəm. Sonra danışa bilərik?”

Əgər sizi sevən və hörmət edən birisidirsə, böyük ehtimalla görüşü təxirə salmaq təklifinizi qəbul edəcək. Narahatlıqları varsa, açıq şəkildə ifadə edəcək. Nəzarət edən şəxs isə inciyəcək və bəlkə də qəzəblənəcək. Nəzarət edən insanlar sizi günahkar hiss etdirərək öz tələblərini sizə tətbiq edirlər. O, təkbaşına etmək istədiyiniz hər şeyi sevilməməyin əlaməti kimi şərh edir. Bunu sizə israrla və ya məzəmmətlə, bəzən də mübahisə edərək bildirir.

Beləliklə, getdikcə daha çox müstəqil qərarlar verməkdən könüllü olaraq imtina edir, ailə və dostlardan uzaqlaşırsınız. Onlar sevgi, sədaqət və bağlılıq kimi anlayışlardan istifadə edərək azadlığınızı məhdudlaşdırır. Nəticədə getdikcə bir-birindən asılı olan münasibət qurursunuz.

## Başqalarını idarə etmək özünüzü sakitləşdirməyin yoludur?

Bir çoxları üçün özümüzü və ətrafımızdakıları sakitləşdirməyin ən sürətli yolu ailə, dostlar, həmkarlar və ya hətta yad insanlar üçün həddən artıq məsuliyyət götürməkdir. Başqaları üçün çox şey etmək, narahatlıq və gərginliyi azaltmaq üçün təsirli bir yol ola bilər, lakin bu, özünüzün və digər insanın daha məsuliyyətli bir insan olmasına mane olur.

Aşağıdakı davranış siyahısı öz narahatlığınız üçün deyil, başqaları üçün məsuliyyət daşıdığınızı göstərir. Özünüzdə neçə davranış müşahidə edirsiniz?

- Partnyorunuzun müəyyən bir vaxtda oyanmasına və yatmasına əmin olmağa çalışmaq.
- Başqalarını sakitləşdirmək üçün mesajlarda və ya e-poçtlarda ”kədərlənmə” kimi ifadələrdən istifadə etmək.
- Həyat yoldaşınızın və ya uşağınızın qarşısına qoymadığı məqsədləri təyin etmək.
- İnsanların narahat olduqları zaman cümlələrini bitirmək.
- Ailə üzvlərinə daha sağlam qidalanmağı öyrətmək.
- Dərd içində olan dosta məsləhət vermək.
- Həmişə dost qrupları üçün restoran seçmək.
- Bir ailə üzvünə yemək bişirmək üçün könüllü olarkən bişirməyi öyrətmək.
- İnsanlara tələsməyi və səyahətlərini bron etməyi xatırlatmaq.
- Başqası üçün edə biləcəyiniz bir şeyi etmək ki, daha az vaxt aparsın.



- Başqalarını öyrətmək zəhlətökən olduğu üçün işdə hər şeyi öz üzərinə götürmək.
- Başqalarını narahat etməmək üçün vacib məlumatları paylaşmamaq.
- İnsanlara necə düşünmək və ya hərəkət etmək lazım olduğunu söyləmək.
- Kiməsə dərmanını almağı xatırlatmaq.
-Kiməsə nə sifariş verəcəyini söyləmək.
- Alternativ gizli plan hazırlamaq, kiminsə onu alt-üst edəcəyini düşünmək.
- Həyat yoldaşına və ya tərəfdaşına ailəsinə zəng etməyi xatırlatmaq.
- Yetkin valideynə tanışlıq məsləhətləri vermək.
- İşgüzar görüşdə iştirak edərkən başqasının fikrini aydınlaşdırmaq.
- İstəmədən başqasının boşqabına daha çox yemək qoymaq.
- Çox istehlak etməmək üçün birindən spirt və yemək gizlətmək.
- Həmkarınızın vəzifələrini öhdəsinə götürmək.
- Öz yolunu tapa bilən birinə istiqamət vermək.
- Özlərinin edə bildiklərini bildirdikdə belə başqaları üçün bir şey etmək.
- İşçinin bildiyi halda qarşıdan gələn görüşü xatırlatmaq.
- Onunla əlaqə saxlaya biləcək birinin adından həkimi ilə danışmaq.
- Yetkin valideynlər üçün özlərinin edə biləcəyi qərarlar qəbul etmək.
- Özü asanlıqla həll edə bilən birinə tapşırıq üçün təlimatlar buraxmaq.
- Tanıdığınız birinin gününü planlaşdırmaq
- Söhbətlərdə boşluqları və fasilələri doldurmaq üçün çox danışmaq.
- Başqalarının problemlərindən narahat olmaq.

***Ayşən Vəli***

# ”Nar”dan sərfəli rouminq: Pulsuz WhatsApp yazışma

Abunəçiləri üçün istənilən yerdə fasiləsiz ünsiyyəti təmin edən ”Nar” yay tətilini xaricdə keçirən müştəriləri üçün sərfəli rouminq paketləri təqdim edir. Müxtəlif ehtiyaclara uyğun sərfəli qiymətə təqdim olunan 4 rouminq paketindən yararlanmaq üçün səfərə çıxmazdan əvvəl rouminq paketlərindən birini sifariş etmək kifayətdir. İstədiyiniz ölkəyə uyğun istənilən rouminq paketini ”Nar+” tətbiqində Xidmətlər>Paketlər>Rouminq bölməsindən çox rahat şəkildə sifariş edə bilərsiniz.

İstifadəçilər üçün unikal seçimlər təqdim edən ”Nar”ın ”Rouminq 9” paketi abunəçilərə 500 MB internet, ”Rouminq 15” paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, ”Rouminq 18” paketi 1 GB internet, ”Rouminq 28” paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki, ”Rouminq 18” və ”Rouminq 28” paketlərində ”WhatsApp” yazışmaları tamamilə pulsuzdur, yəni bu trafik sizin internet paketinizdən çıxılmayacaq.

Müştərilərin rahatlığını artırmaq üçün sifariş edilən paket daxilində balansı yoxlamaq isə *777#20#YES yığmaq qədər sadədir. ”Rouminq 9”, ”Rouminq 15” paketlərinin istifadə müddəti 5 gün, ”Rouminq 18” və ”Rouminq 28” paketlərinin istifadə müddəti isə 15 gündür. Rouminq xidməti haqqında bütün məlumatları nar.az/abroad bölməsindən əldə edə bilərsiniz.




”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Dünya təhlükə qarşısındadır!

## Kreml bəşəriyyəti nüvə silahı ilə hədələyir



2022-ci il fevralın 24-dən başlayan Rusiya-Ukrayna müharibəsi daha amansız formada davam etməkdədir. Hər gün müharibə meydanında yüzlərlə insan ölür və ya yaralanır, onlarla yaşayış və qeyri-yaşayış binaları dağıdılır. Ukrayna tərəfinin verdiyi məlumata görə, yalnız ötən gün Rusiyanın 276 əsgəri öldürülmüş və 1500-ə yaxın əsgər və zabiti isə yaralanıb. Beləliklə, müharibə başlayandan bu günə qədər Rusiya tərəfinin ümumi itkilərinin sayı 254 380 nəfərə çatıb. Həmçinin, ötən son sutka ərzində Rusiyaya məxsus 8 tank, 19 zirehli döyüş maşını, 28 artilleriya sistemi Ukrayna ordusu tərəfindən sıradan çıxarılıb. Ukraynanın itkiləri isə 400 mini keçdiyi barədə Rusiya tərəfi informasiyalar yayır. Rusiya Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, ötən gün Rusiyanın hava hücumundan müdafiə sistemləri Kursk vilayəti üzərində səmada Ukraynaya məxsus pilotsuz uçuş aparatını (PUA) aşkar edərək məhv edib: "Belqorod vilayətinin Petropavlovka kəndində Ukraynaya məxsus pilotsuz uçan aparat vurulub, onun fraqmentləri fərdi yaşayış evinin üzərinə düşüb. Nəticədə, eyvanın dam örtüyü və şüşələri zədələnib. Rusiya hərbçiləri bir sutka ərzində DXR-in Pervomaysk vilayətində Ukrayna Silahlı Qüvvələrinin pilotsuz uçan aparatları idarəetmə mərkəzinə, canlı qüvvəsinə və hərbi texnikasına zərbələr endirib. Rusiya hava hücumundan müdafiə sistemi bir gündə səkkiz HIMARS MLRS mərmisini ələ keçirib. Rusiya qoşunları Ukrayna Silahlı Qüvvələrinin Krasnolimanski, Kupyanski və Donetsk istiqamətlərində 13 hücumunu dəf edib". Məlumatda Ukrayna Silahlı Qüvvələrinin Donetsk istiqamətində 300 hərbçinin öldüyü və yaralandığı bildirilir. Bundan əlavə, Ukrayna Silahlı Qüvvələri üç döyüş zirehli maşını və iki texnikasını itirib. Bu arada "RİA Novosti" yerli şəxslərə istinadən yazır ki, Rusiya hərbçiləri Rusiyanın Xerson təşkilatının Rusiyapərəst yerli döyüşçülərinin köməyi ilə Ukrayna Silahlı Qüvvələrinin bir sıra obyektlərini məhv edib: "Təqdim etdiyimiz koordinatlara əsasən, Kulik küçəsindəki Petrovski zavodunun ərazisindəki anqarda bir sursat anbarı və bir neçə hərbi texnika məhv edilib. 30 ukraynalı döyüşçü ilə birlikdə Xersonda sursat anbarı, bir neçə hərbi texnika və hərbi obyektlər məhv edilib".





### Krım körpüsü partladıldı

Hazırkı məqamda görünən ondan ibarətdir ki, Ukrayna Silahlı Qüvvələrinin əsas hədəfi Rusiyanın Belqorod, Bryanski, Vorenej, Krım körpüsü və pilotsuz uçuş aparatları vasitəsi ilə Moskva şəhəridir. Avqustun 12-i və 14-də Ukrayna yenidən Krım körpüsünü vurmağa cəhd edib. İki S-200 hava hücumundan müdafiə raketi vasitəsi ilə körpüyə hücum edilib. Lakin Rusiyanın hava hücumundan müdafiə qüvvələri tərəfindən raketlər Krım (Kerç) körpüsü yaxınlığında məhv edilib. Partlayışlar zamanı havanı qatı duman bürüyüb. Ukraynalılar bunu sosial şəbəkələrdə yayıblar. Rusiya tərəfi sosial şəbəkələrdə paylaşılan informasiyaların və fotoların əsassız olduğunu qeyd edib: "Zelenski əks-hücumun tam iflasa uğradığı bir şəraitdə bu yolla həmvətənlərinin mənəviyyatını yüksəltməyə çalışır. İkinci vəzifə də var - Rusiya cəmiyyətində Rusiya rəhbərliyinin ölkə üçün effektiv hava hücumundan müdafiəsini təmin etmək qabiliyyətinə dair qorxu və şübhələr oyatmaq. Lakin Britaniya dövləti olaraq bu məqsədlərə hələ də nail olunmayıb: Rusiyada əhali Ukrayna üçün ən yaxşı halda pilotsuz təyyarələrin hücumlarına məhəl qoymur, Zelenski və Ukrayna Silahlı Qüvvələri ukraynalıların mənəviyyatını yüksəldə bilmir, demək olar ki, bütün cəhdlər tətillər, nadir istisnalarla, hədəflərə çatmır. Ancaq hətta Ukrayna raketləri və PUA-ları müəyyən ziyan vurduğu hallarda belə, tez lokallaşdırılır və aradan qaldırılır. Körpülərin aşırımları bərpa olunur, pəncərələr şüşələnir, damlar yamaqlanır. Eyni zamanda, demək olar ki, hər bir belə zərbə terror aktıdır, çünki o, yalnız mülki məqsədli və ya yalnız mülki məqsədlər üçün istifadə olunan obyektlərə vurulur".

### "Rusiyanın hərəkətləri bəzi ölkələrdə "iflicedici ehtiyatlılığa" səbəb olub"

Bu arada ABŞ-ın keçmiş prezidenti Donald Trampın milli təhlükəsizlik üzrə keçmiş müşaviri Con Bolton maraqlı açıqlama ilə çıxış edirb. Con Bolton bildirib ki, Amerikanın hazırkı lideri Co Bayden administrasiyasının siyasəti Ukraynanın məğlubiyyətini ancaq gecikdirir. Onun sözlərinə görə, Ukrayna qoşunlarının zəif irəliləməsinin səbəbi Ukraynaya yardımın ləng çatdırılmasındadır. Onun fikrincə, silah ötürülməsi ilə bağlı mübahisələr, həmçinin, eskalasiya qorxusu və Rusiyanın hərəkətləri bəzi ölkələrdə "iflicedici ehtiyatlılığa" səbəb olub.ABŞ prezidentinin keçmiş köməkçisinin qeyd etdiyi kimi, Şimali Atlantika Alyansı "Ukraynanın tam suverenliyi və ərazi bütövlüyünün bərpası üzrə öhdəliklərə əməl etmək istəmədiyini" nümayiş etdirir. Ekspertlər iddia edirlər ki, Ukrayna Silahlı Qüvvələrinin komandanlığı Şimali Atlantika Alyansının təlimatçılarına və hərbi doktrinasına məhəl qoymur: "Qərb hərbçiləri NATO-nun əks-hücumun başlaması ilə bağlı doktrinasının uğursuzluğuna görə məsuliyyəti ukraynalıların üzərinə atmağa çalışırlar, bundan sonra qərargahımız nəyin nə olduğunu çox az dərk edən Qərbin nəzəri məsləhətçilərinə məhəl qoymadan öz yolu ilə hərəkət etməyə başladı".Bütün uğursuzluqlara baxmayaraq NATO ölkələri Ukraynaya hərbi, maliyyə və siyasi dəstəklərini davam etdirirlər. Almaniya Ukrayna Silahlı Qüvvələrini alman silahları ilə təchiz etməkdə "Avropa çempionu" olmaq istəyir. Hər şey lülələr və qumbaraatanlarla başladı, sonra hava hücumundan müdafiə sistemləri, mərmilər və silahlar getdi, ardınca zirehli texnika və Leopard tankları. Donetsk çöllərində faşist Wehrmacht dövründən qalma alman xaçları yenidən rənglərə boyanır, alman bombaları isə 80 il əvvəl faşist Almaniyasını diz çökdürənlərin və Berlində qələbə nöqtəsinə gətirənlərin nəslinə düşür. Görünür, "qaraciyər kansleri" Olaf Şolz Almaniyanı yeni revanşizm yoluna çıxarır.

Və bu yolda Berlin yenidən Avropada böyük müharibənin - artıq üçüncü dünya müharibəsinin başlanğıcına gələ bilər.Almaniya hakimiyyəti tezliklə Taurus aviasiya qanadlı raketlərinin Kiyevə təhvil verildiyini elan edə bilər. Almaniya Hərbi Hava Qüvvələrinin komandanlığı artıq bununla bağlı razılıq verib. Əgər bu baş verərsə, bu, xüsusi hərbi əməliyyatın gedişinə necə təsir edə bilər? TAURUS 500 km-dən çox hədəfə çata bilən alman-İsveç uzun mənzilli təyyarə qanadlı raketidir. Ağır qorunan və basdırılmış hədəflərə qarşı yüksək dəqiqlikli zərbələr üçün nəzərdə tutulmuşdur. Döyüş başlığının çəkisi çox layiqli - 480 kq. İndiyədək Polşada daha 10-dan çox Sovet Su-24 bombardmançısının (Varşava Müqaviləsi dövründən) bu raketlər üçün (həmçinin Fırtına kölgəsi üçün) konvertasiya edildiyi məlumdur. Ola bilsin ki, oradan da bombardmana gedəcəklər. Çünki Ukrayna ərazisindəki aerodromlar daim Rusiya pilotsuz təyyarələri və raketləri ilə ütülənir.

### Rusiya isə müttəfiqləri



### taxıl sazişindən çıxmaqla cəzalandırmağa çalışır

Rusiya isə müttəfiqləri taxıl sazişindən çıxmaqla cəzalandırmağa çalışır. Rusiya taxıl sazişindən çıxanda "bütün maraqlı ölkələrə" xəbərdarlıq etmişdi ki, Qara dənizdə şübhəli gəmiləri yoxlayacaq. O cümlədən, təbii ki, Ukrayna limanlarına gedəcəklər. Niyə? Aydındır. Belə gəmilər hərbi yükləri öz "dinc" anbarlarına daşıya bilir. O cümlədən, Rusiya gəmilərinə və ya bazalarına hücum üçün dəniz dronları (Krım körpüsünə hücumdan sonra bu versiya da ortaya çıxdı). Avqustun 13-də Qara dənizin cənub-qərb hissəsində Rusiya Qara Dəniz Donanmasının patrul gəmisi Vasili Bıkov Palau bayrağı altında "Sukra Okan" yük gəmisini aşkar etmişdir. Rusiya tərəfinin iddiasına görə, bu, cırtdan ölkədir, əhalisi cəmi 18 min nəfərdir. Təbii ki, özünün heç bir donanması yoxdur, amma Amerika gəmiləri onun "örtük" bayrağından rahatlıqla istifadə edirlər. Fakt budur ki, Palau ABŞ-la əlaqəli ada dövləti statusuna malikdir. Rusiya Qara Dəniz Donanmasının patrul gəmiləri Rusiyanın Krasnodar diyarının Anapa rayonundan Qara dənizin dibi ilə Türkiyənin Avropa hissəsinə gedən "Türk axını" qaz kəmərinin təhlükəsizliyini təmin edir. Onlar artıq Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi tərəfindən hazırlanmış qaz kəmərində bir neçə terror aktının qarşısını alıblar və Ukraynanın pilotsuz katerlərinin partlayıcı maddələrlə bir neçə hücumunu dəf ediblər, Ukrayna onlarla birlikdə Rusiya patrul gəmilərini sıradan çıxarmağa çalışıb. Bütün bunlar onu deməyə əsas verir ki, Ukraynanın əks-hücum taktikası nəticəsiz qalsa da, Avropa və ABŞ geri çəkilmək niyyətində deyillər. Bu isə müharibənin hələ uzun müddət çəkəcəyindən xəbər verir. Müharibənin uzanması isə yeni kənd və şəhərlərin dağılması, yüzlərlə insanın həyatına son qoyulması deməkdir. Əgər gözlənilməz hadisələr baş verərsə, itkilərin və dağıntıların miqyası genişlənə və arta bilər. Çünki Rusiya prezidenti dəfələrlə bəyan edib ki, "Rusiyasız dünya bizim nəyimizə lazımdır". Yəni, Rusiyanın ərazisinə hücumlar artarsa, bu zaman nüvə silahından istifadə qaçılmazdır. Ukrayna tərəfinin Belqoroda, Voronej və Moskva şəhərlərinə pilotsuz aparatlar və əsgəri birliklərlə hücumlar təşkil etdiklərini nəzərə alsaq, V.Putunun sözdə hədəsini əməldə də həyata keçirə biləcəyi ehtimalı yaranır. Deməli, balaca dünyamız, doğrudan da, təhlükə qarşısındadır.

**İ.ƏLİYEV**

# Yevgeni Mixaylov: ”Rusiya BMT-də anti-Azərbaycan qətnaməyə imkan verməyəcək”

## Rusiyalı ekspert: Azərbaycan tərəfinin Qarabağdakı hərəkətləri tamamilə qanuni və haqlıdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*




**Avqustun 11-də Ermənistan BMT Təhlükəsizlik Şurasına ”Dağlıq Qarabağın mülki əhalisinin məcburi şəkildə tam blokadaya alınması nəticəsində humanitar vəziyyətin pisləşməsi” ilə əlaqədar fövqəladə iclasın çağırılması tələbi ilə müraciət edib. Müraciətdə Ermənistanla Qarabağın Bakının nəzarətində olmayan hissəsini birləşdirən Laçın yolunun guya Azərbaycan tərəfindən nəqliyyat üçün bağlandığı iddia edilir.**

Azərbaycan Xarici İşlər Nazirliyi sərt reaksiya verib: Ermənistan BMT Təhlükəsizlik Şurasını siyasi, hərbi və informasiya manipulyasiyası kampaniyasının alətinə çevirməyə çalışır. Azərbaycan XİN-dən bildiriblər ki, intensiv məsləhətləşmələr və peyk diplomatiyasının səylərindən sonra müxtəlif marşrutlar üzrə humanitar yüklərin Qarabağ bölgəsinə çatdırılması, eləcə də Azərbaycanın xüsusi nümayəndəsi və XİN nümayəndələri ilə yerli erməni əhalisi arasında görüşün təşkili barədə razılıq əldə olunub, lakin Ermənistan Qarabağdakı qanunsuz rejim vasitəsilə siyasi motivli, qeyri-qanuni şərtlər irəli sürərək son anda hər iki razılaşmadan imtina edib.

Xatırladaq ki, aprel ayında Ermənistan tərəfinin silsilə təxribatlarından sonra Azərbaycan Ermənistanı və Qarabağın Bakının nəzarətində olmayan hissəsini birləşdirən Laçın yolunda sərhəd-keçid məntəqəsi quraşdırıb. İyulda Ermənistan tərəfinin bu yolda qaçaqmalçılığı dəfələrlə qeydə aldıqdan sonra Azərbaycan Ermənistana müalicə üçün Qarabağın erməni əhalisinin nümayəndələrini daşıyan erməni nömrəli avtomobillərin, eləcə də Beynəlxalq Qızıl Xaç Komitəsinin avtomobillərinin keçidini dayandırıb. Lakin Qızıl Xaç Cəmiyyətinin nümayəndəsi ilə danışıqlardan sonra Bakı tibbi yardıma ehtiyacı olanların daşınmasının bərpasına icazə verib, həmçinin erməni tərəfinə humanitar yüklərin Xankəndinə çatdırılması üçün Ağdamdan keçən yoldan istifadə etməyi təklif edib. Ermənistan hakimiyyəti bu təklifdən imtina edib və Bakı ilə razılaşmadan Laçın keçid məntəqəsinə humanitar yardımla dolu bir neçə yük maşını göndərib və onlar hələ də orada dayanır.

Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov Ermənistanın beynəlxalq müstəvidə Bakını ”cəzalandırmaq” cəhdlərinin nə üçün nəticəsiz qalacağını ”Moskva-Baku” portalına izah edib.

- Düşünmürəm ki, BMT Təhlükəsizlik Şurası belə bir iclas keçirməyə razı ola, hətta olsa belə, bu, hansısa nəticə verməyəcək. Çox güman ki, bunun nəticəsində Ermənistan və Azərbaycana sadəcə olaraq müxtəlif platformalarda sənədləşdirilmiş münasibətlərin normallaşdırılmasına dair razılaşmaların yerinə yetirilməsi, regionda vəziyyətin gərginləşməməsinə töhfə verilməsi üçün tövsiyələr veriləcək. Yəni, mətn sadələşdiriləcək və bəyanatda antiazərbaycan tezislərinin qeyd olunacağı ehtimalı azdır, çünki Rusiya sadəcə olaraq buna imkan verməyəcək və sənədə veto qoyacaq.

Təbii ki, belə bir görüş baş tutsa, o zaman Fransa ənənəvi olaraq ”saçını yolacaq”. Əsas antiazərbaycan təxribatlarını ondan gözləməliyik. Bildiyiniz kimi, Paris son vaxtlar beynəlxalq aktyor kimi külli miqdarda imic itkiləri ilə üzləşib və dünyanın müxtəlif yerlərində siyasi proseslərə təsirini saxladığını göstərməyə çalışır. Ona görə də Fransa Təhlükəsizlik Şurasında ənənəvi olaraq Azərbaycana qarşı çıxacaq.

Birləşmiş Ştatlar Azərbaycanın Laçın yolunun bağlanmasını mütəmadi olaraq təkrarlasa da, görüşdə o qədər də güclü təzyiqə getməyəcək. Daha çevik olacaqlar, hiyləgər taktikaları var. Onların vəzifəsi əsas olaraq qalır- Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün ”vasitəçilik yorğanı”nı yırtmaq, Rusiyanı kənara çəkmək, tərəfdaşlar qarşısında onu ləkələmək. Ermənistan isə təbii ki, Qərb üçün Zaqafqaziyadakı problemlərini həll etmək üçün yaxşı vasitədir.




Fransa da yorğanı öz üzərinə çəkməyə çalışır, amma bunu yöndəmsiz, açıq-aşkar edir, belə taktikalarla, hətta bəzi maraqlarını güdəndə belə, uzağa getmək olmaz.

Ona görə də BMT Təhlükəsizlik Şurasının iclasında Ermənistanı növbəti uğursuzluq gözləyir. Azərbaycana heç kim heç bir sanksiya tətbiq etməyəcək, bu, sadəcə olaraq, real deyil. Bakı həddən artıq israrlı oyunçudur, üstəlik, enerji təhlükəsizliyinin təmin edilməsində ciddi mənbələrdən biri kimi Qərbin ona ehtiyacı var.

Laçın yolu ətrafında yaranan gərginliyi Ermənistan tərəfinin özü törədib. Ermənistan ”dinc” yük əvəzinə separatçılara Laçın yolu ilə silah verirdi və Azərbaycan tərəfindən onun üzərində nəzarət-buraxılış məntəqəsi quraşdırıldıqdan sonra onu dolayı yollarla təmin etməkdə davam edir. Bundan əlavə, qaçaqmalçılıq həyata keçirir.

Gördüyümüz kimi, yol boyu keçmiş erməni silahlıları da keçir. Deməli, Azərbaycan tərəfinin hərəkətləri tamamilə qanuni və haqlıdır. Azərbaycan özünü məsuliyyətli və şəffaf aparır. Bakı erməni tərəfinə humanitar yardımın daşınması üçün Ağdamdan keçən yoldan Xankəndinə getməyi təklif edib. Amma İrəvan vəziyyəti yenidən qızışdırmaq qərarına gəldi və Bakı ilə razılaşdırılmadan Laçın yoluna humanitar yardım daşıyan yük maşınlarının gəlməsi ilə yeni qalmaqal yaratdı.

Ermənistan bir növ ”soyqırım” təhlükəli ilə bütün dünyanı qorxudur və Azərbaycanı işğalçı kimi təqdim etmək üçün bu mövzunu dolaşdırır. İrəvan hər vasitə ilə Bakı ilə yekun sülhün əldə olunmasını ləngitməyə çalışır, vəziyyəti qismən də olsa özü üçün müharibədən əvvəlki vəziyyətə qaytarmağa, nəyisə qoparmağa, necə deyərlər, artıq yola düşmüş qatarın sonuncu vaqonuna tullanmağa çalışır.

Rusiya sülhməramlılarının Qarabağda yerləşdirilməsi İrəvana yaramır. Çünki Rusiya Zaqafqaziyada sülhün bərqərar olmasına çalışır. Ermənistan hakimiyyəti mütəmadi olaraq sülhməramlıların hərəkətlərini tənqid edir. İrəvan bu zonada Qərb sülhməramlılarının yerləşdirilməsinə nail olmağa çalışır. Aİ-nin Ermənistandakı mülki monitorinq missiyasında olduğu kimi, amma genişləndirilmiş mandatla.

Bununla bağlı Laçın yolu ətrafında vəziyyətin daim gərginləşməsi müşahidə olunur. Əbəs yerə deyil ki, Ermənistan tərəfi mütəmadi olaraq Qarabağa və Laçın yoluna BMT-nin ”fakt-araşdırıcı” missiyasını göndərməyə çağırır. BMT isə beynəlxalq təşkilat kimi özünü çoxdan gözdən salıb. Bu günə qədər özünü gözdən salmaqda davam edir. Bunu Qarabağ münaqişəsi göstərdi, o zaman ki, BMT Təhlükəsizlik Şurasının 30 il ərzində qəbul etdiyi qətnamələr yerinə yetirilmirdi və Azərbaycan özü onları həyata keçirməli oldu. Və bu gün bir çox dövlətlər, o cümlədən Rusiya, Azərbaycan, Türkiyə BMT-də islahatların aparılmasının zəruriliyindən və strukturun müasir reallıqlara cavab verməməsindən danışırlar.

BMT uzun müddətdir ki, Qərb dövlətləri tərəfindən manipulyasiya vasitəsi olub. Amerika BMT-ni sıxışdırır. Bu, amerikalıların əlində təzyiq rıçaqıdır.

Kənardan belə görünür ki, hər şey sadə və şəffafdır- beynəlxalq hüquqa görə Qarabağ Azərbaycandır və həmişə Azərbaycanın olub, amma siyasət böyük oyundur, böyük mübarizədir. Bu gün isə bu, Rusiya ilə Qərbin qarşıdurması üçün platformadır. Və beynəlxalq hüquqa riayət etməkdə maraqlı olmayan, Azərbaycanın ərazi bütövlüyü ilə maraqlanmayan, ədalətlə maraqlanmayan qüvvələr var. Bəli, ədalət Azərbaycanın tərəfindədir. Ancaq hər şey o qədər də sadə deyil. Ermənistan hakimiyyəti müxtəlif platformalarda Qarabağı Azərbaycan ərazisi kimi tanıdıqlarını dəfələrlə bəyan edib. Amma bu sadəcə sözlərdir və əməllər də onların ardınca getməlidir- Bakı ilə sənədin imzalanması, bu tanınmasını təsbit etmək. Amma Azərbaycan Respublikasının milli maraqları bəzi beynəlxalq oyunçulara uyğun gəlmir.

Bu gün dünya dəyişir. Və geosiyasi dəyişikliklərlə mən əminəm ki, bütün aparıcı beynəlxalq strukturlarda islahatlar aparılacaq. Ədalət və beynəlxalq hüquq nöqteyinəzərindən beynəlxalq təşkilatlar və məsul dövlətlər də Rusiya kimi mütəmadi olaraq Ermənistan və Azərbaycanı münasibətlərin normallaşması prosesi çərçivəsində əldə edilmiş razılaşmaları həyata keçirməyə çağırmalıdırlar.

Necə ki, məsələn, Moskva vasitəçi kimi tarazlığı qoruyur. Rusiya dəfələrlə Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını bəyan edib. Beynəlxalq strukturlar tərəfindən biz tez-tez Ermənistanın hərəkətlərinə münasibətdə balanssız, qeyri-tənqidi yanaşmanın şahidi oluruq. Amma məhz İrəvan razılaşmaları yerinə yetirmir- o, qeyri-qanuni erməni silahlı birləşmələrini Qarabağdan çıxarmır,- hansı ki, bu barədə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında deyilir. Zəngəzur dəhlizini açmaq istəmir. İrəvan sözdə sülhə hazır olduğunu bəyan etsə də, daim eskalasiyaya səbəb olur. Və o, Bakını cəzalandırmaq üçün Qərbdən kömək istəməkdə davam edir. Lakin bu cəhdlər boşa çıxır.

Azərbaycanın hərəkətləri beynəlxalq hüquq baxımından qüsursuzdur, ona görə də heç kim və heç nə Bakını nəzərdə tutduğu kursdan- Qarabağ bölgəsində öz suverenliyinin tam və qeyd-şərtsiz bərpasına doğru geri çəkilməyə məcbur edə bilməz.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
16 avqust
2023-cü il

# İşsizliyə görə sığorta kimlərə verilir?



## VƏKİL AÇIQLADI






"İşsizlikdən sığortanın subyektləri arasındakı münasibətləri "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu tənzimləyir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Onun sözlərinə görə, bu qanunun məqsədi sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsidir: "Bu qanun siyasi vəzifə tutan şəxslərə şamil edilmir.

İşsizlikdən sığorta ödənişi dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi, habelə əmək müqaviləsinin müddəti qurtarması nəticəsində əmək münasibətlərinə xitam verilmiş və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müda?əsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemində işsiz kimi qeydiyyata alınmış şəxslərə şamil olunur.

Yəni, sığorta ödənişini almaq hüququna əmək münasibətlərinə aşağıdakı əsaslarla xitam verilmiş və "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar malikdirlər:

1) dövlət orqanı və ya hüquqi şəxs ləğv edildikdə

2) işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə

3) əmək müqaviləsinin müddəti qurtardıqda

Sığorta ödənişi almaq hüququ əldə etmiş şəxs ilkin mərhələdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumları və ya "DOST" mərkəzlərində qeydiyyata alınmalıdır. 5 iş günü ərzində müvafiq icra hakimiyyəti orqanı müraciət edən vətəndaşa münasib iş təklif olunmadığı və ya işəgötürən (işəgötürənlər) tərəfindən vakansiyaya qəbulundan imtina edildiyi halda, sığorta ödənişi təyinatı üzrə qərar qəbul edir. Bundan sonra şəxs sığorta ödənişi almaq üçün ərizə və ərizəyə tikilməli olan sənədləri təqdim edir və sığorta ödənişi təyin edilir.

Sığorta ödənişi sığorta stajından asılı olmayaraq, onların itirilmiş orta aylıq əməkhaqqının 50 faizi məbləğində hesablanır".

***Ayşən Vəli***



## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Soğanı bu üsulla soysanız, gözləriniz yaşarmayacaq



Soğan soymaq və doğramaq cəhdləri əsassız göz yaşlarına səbəb olur. SİA Türkiyə mətbuatına istinadən xəbər verir ki, artıq bu çətin prosesi gözlər yaşarmadan da başa çatdırmaq mümkündür. Soğan soyarkən göz yaşı tökməyəcəyiniz bu üsulu rahatlıqla sınaqdan keçirə bilərsiniz.

Belə ki, soğanın əvvəlcə qabığı soyulmalı və doğranmalıdır. Bu soyulma və doğrama hissəsində soğan gözlərimizi yaşartdığı üçün bir az tərəddüd edirik. Tərkibindəki komponentlərə görə soğan gözümüzü yandırır və göz yaşlarına səbəb olur.

Soğan doğrayarkən gözlərinizin yanmasını istəmirsinizsə, bunu çox sadə üsulla edə bilərsiniz. Əvvəlcə soğanı suyun altında soyun və buzlu su ilə bir qaba atın. Soğanları təxminən 15-20 dəqiqə buzlu suda isladın. Sonra buzlu sudan çıxardığınız soğanları gözünüzü yandırmadan soya bilərsiniz.

***Ayşən Vəli***

# Şabranda 15 yaşlı gənc intihar edib

Şabran rayonunda gənc intihar edib. SİA-nın məlumatına görə, hadisə Zeyvə kəndində baş verib. Belə ki, rayon sakini 2008-ci il təvəllüdlü Abdullayev Nəcəf Ariz oğlu yaşadığı fərdi yaşayış evinin həyətində yardımçı tikilidən özünü asaraq intihar edib.

Onun meyiti müayinə olunması üçün Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Şabran rayon şöbəsinə təhvil verilib. Hadisə ilə bağlı araşdırma aparılır.



# Azərbaycanda xarici dərmanlar 5 il müddətinə dövlət qeydiyyatına alınacaq

Azərbaycanda xarici (beynəlxalq) qeydiyyatı tanınan dərman vasitəsinin dövlət qeydiyyatı 5 il müddətində qüvvədə olacaq. SİA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin "Dərman vasitələri haqqında" qanuna dəyişiklikləri təsdiqləməsi ilə mümkün olub.

Belə ki, dəyişikliklərlə xarici (beynəlxalq) qeydiyyatı tanınaraq dövlət qeydiyyatına alınmış dərman vasitəsinin yenidən dövlət qeydiyyatına alınması məqsədilə ərizəçinin müraciətinə qanunda nəzərdə tutulan qaydada baxılacaq. Əgər xarici (beynəlxalq) qeydiyyatı tanınaraq dövlət qeydiyyatına alınmış dərman vasitəsinin qanunda qeyd olunan sənədlərində (məlumatlarında) hər hansı dəyişiklik olduqda ərizəçi dəyişikliyin dövlət qeydiyyatına alınması üçün icazə verən orqana müraciət edəcək.



Müraciətə icazə verən orqan tərəfindən qanunda nəzərdə tutulan qaydada baxılır, dövlət rüsumunun ödənilməsini təsdiq edən sənədi aldıqdan sonra dəyişiklik dövlət qeydiyyatına alınaraq dövlət reyestrinə daxil edilir və dərman vasitəsinin dövlət qeydiyyatı haqqında yeni vəsiqə ərizəçiyə təqdim edilir. Bu zaman reyestr nömrəsi və dövlət qeydiyyatı haqqında vəsiqənin nömrəsi dəyişməyəcək.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**